# QƏDİM DİYAR

Beynəlxalq onlayn elmi jurnal

## ANCIENT LAND

International online scientific journal

aem.az

AEM

ISSN: 2706-6185
e-ISSN: 2709-4197


# II BEYNƏLXALQ HUMANİTAR VƏ İCTİMAİ ELMLƏR KONFRANSININ MATERİALLARI

(19 may 2023)

# MATERIALS OF THE II INTERNATIONAL CONFERENCE ON HUMANITIES AND SOCIAL SCIENCE

(19 may 2023)

**QƏDİM DİYAR**
**Beynəlxalq elmi jurnal**
**İmpakt Faktor**
**1.028**

# II BEYNƏLXALQ HUMANİTAR VƏ İCTİMAİ ELMLƏR KONFRANSININ MATERİALLARI

**(19 may 2023)**

DOI: https://doi.org/10.36719/2709-4197/2023/2/1

**ANCIENT LAND**
**International scientific journal**
**Impact Factor**
**1.028**

# MATERIALS OF THE II INTERNATIONAL CONFERENCE ON HUMANITIES AND SOCIAL SCIENCES

**(19 may 2023)**

**Bakı – Baku**
**2023**

Jurnal 31.01.2012-ci ildə
Azərbaycan Respublikası
Ədliyyə Nazirliyi
Mətbu nəşrlərin
reyestrinə daxil edilmişdir
Reyestr №3534

The journal is included in the
register of Press editions of the
Ministry of Justice
of the Republic of Azerbaijan
on 31.01.2012.
Registration No. 3534

**Redaksiyanın ünvanı:**
Az1073, Bakı şəh.,
Mətbuat prospekti, 529,
“Azərbaycan” nəşriyyatı,
6-cı mərtəbə

**Editorial address:**
Az1073, Baku,
Press Avenue, 529,
“Azerbaijan” Publish House,
6-th floor

**Tel.:** (050) 209 59 68
(055) 209 59 68
(012) 510 63 99

**e-mail:**
qedimbeyn@gmail.com

## Beynəlxalq indekslər / International indices

**ISSN: 2707-1146**
**e-ISSN: 2709-4189**
**DOI: 10.36719**

## TƏŞKİLAT KOMİTƏSİ

**Sədr**

**Prof. Dr. Vaqif SOLTANLI**, Bakı Dövlət Universiteti / Azərbaycan

**Sədr müavinləri**

**Tədqiqatçı Mübariz HÜSEYİNOV**, Azərbaycan Elm Mərkəzi / Azərbaycan
**Prof. Dr. Abdulkadir GÜL**, Ərzincan Binalı Yıldırım Universiteti / Türkiyə

**Məsul katib**

**Tədqiqatçı Nəhayət HÜSEYİNLİ**, Azərbaycan Elm Mərkəzi / Azərbaycan
nehayet.huseynli@gmail.com

## ÜZVLƏR

**Prof. Dr. Nailə VƏLİXANLI**, Tarix muzeyi / Azərbaycan
**Prof. Dr. Nərgiz AXUNDOVA**, AMEA Tarix İnstitutu / Azərbaycan
**Prof. Dr. Coanna MARŞALEK-KAVA**, Nikolay Kopernik Universiteti / Polşa
**Prof. Dr. Vidas KAVALİUSKAS**, Vilnus Biznes Universiteti / Litva
**Prof. Dr. Adil BAXŞƏLİYEV**, Sumqayıt Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Seyfəddin RZASOY,** AMEA Folklor İnstitutu / Azərbaycan
**Prof. Dr. Svetlana KOJİROVA**, L.N.Qumilyov adına Avrasiya Milli Universiteti / Qazaxıstan
**Prof. Dr. Mübariz SÜLEYMANOV**, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti / Azərbaycan
**Prof. Dr. Sərvər ABBASOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Mönsüm ALIŞOV**, "İdrak" liseyi / Azərbaycan
**Assoc. Prof. Dr. İosefina BLAZSANİ-BATTO**, Rumın Dili və Mədəniyyəti Mərkəzi / Rumıniya
**Assoc. Prof. Dr. Cəbi BƏHRAMOV**, AMEA Tarix İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. Nasiba SABİROVA**, Urgenc Dövlət Universiteti / Özbəkistan
**Assoc. Prof. Dr. Dürdanə MƏMMƏDOVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Gülçöhrə ƏLİYEVA**, Azərbaycan Dövlət Dəniz Akademiyası / Azərbaycan
**Assoc. Prof. Dr. Taleh XƏLİLOV**, Naxçıvan Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Andrey RAQULİN**, Rusiya Federasiyasının DİN Moskva Universiteti / Rusiya
**Assoc. Prof. Dr. Mübariz ƏSƏDOV,** Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Fərqanə ƏLİYEVA**, DİN-nin Polis Akademiyası / Azərbaycan
**Assoc. Prof. Dr. Lyudmila CAVADOVA**, İqtisadiyyat və Hüquq üzrə Pedaqoji Kollec / Rusiya, Dağıstan Respublikası
**Assoc. Prof. Dr. Şəhla ƏHMƏDOVA**, Bakı Slavyan Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Andrey SIZRANOV**, Həştərxan Dövlət Universiteti / Rusiya
**Assoc. Prof. Dr. Rəşad SADIQOV**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Ramis HƏŞİMOV**, Dağıstan Dövlət Universitetinin Dərbənd filialı / Rusiya, Dağıstan Respublikası

## THE ORGANIZING COMMITTEE

### Chairman

**Prof. Dr. Vagif SOLTANLI**, Baku State University / Azerbaijan

### Deputy chairman

**Researcher Mubariz HUSEYINOV,** Azerbaijan Science Center / Azerbaijan
**Prof. Dr. Abdulkadir GUL,** Erzinjan Binali Yildirim University / Turkey

### Executive secretary

**Researcher Nahayat HUSEYINLI,** Azerbaijan Science Center / Azerbaijan
nehayet.huseynli@gmail.com

### MEMBERS

**Prof. Dr. Naila VALIKHANLI**, The museum of History / Azerbaijan
**Prof. Dr. Nargiz AKHUNDOVA**, Institute of History of ANAS / Azerbaijan
**Prof. Dr. Joanna MARSZALEK-KAVA**, Nicolaus Copernicus University / Poland
**Prof. Dr. Vidas KAVALIUSKAS**, Vilnius Business University / Lithuania
**Prof. Dr. Adil BAKHSHALIYEV**, Sumgait State University / Azerbaijan
**Prof. Dr. Seyfaddin RZASOY**, ANAS Institute of Folklore / Azerbaijan
**Prof. Dr. Svetlana KOJIROVA**, L.N.Gumilyov Eurasian National University / Kazakhstan
**Prof. Dr. Mubariz SULEYMANOV**, Azerbaijan State University of Culture and Arts / Azerbaijan
**Prof. Dr. Sarvar ABBASOV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Monsum ALISHOV**, Idrak Lyceum / Azerbaijan
**Assoc. Prof. Dr. Iosefina BLAZSANI-BATTO**, Romanian Language and Cultural Center / Romania
**Assoc. Prof. Dr. Jabi BAHRAMOV**, The Institute of History of ANAS / Azerbaijan
**Assoc. Prof. Dr. Nasiba SABIROVA**, Urgench State University / Uzbekistan
**Assoc. Prof. Dr. Durdana MAMMADOVA**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Gulchora ALIYEVA**, Azerbaijan State Marine Academy / Azerbaijan
**Assoc. Prof. Dr. Taleh KHALILOV**, Nakhchivan State University / Azerbaijan
**Assoc. Prof. Dr. Andrey RAGULIN**, Moscow University of the Ministry of Internal Affairs of the Russian Federation / Russia
**Assoc. Prof. Dr. Mubariz ASADOV**, Azerbaijan State Pedagogical University / Azerbaijan
**Assoc. Prof. Dr. Fargana ALIYEVA**, Police Academy of the Ministry of Internal Affairs / Azerbaijan
**Assoc. Prof. Dr. Lyudmila JAVADOVA**, Pedagogical College on Economy and Law / Russia, The Dagestan Republic
**Assoc. Prof. Dr. Shahla AHMADOVA**, Baku Slavic University / Azerbaijan
**Assoc. Prof. Dr. Andrey SIZRANOV**, Astrakhan State University / Russia
**Assoc. Prof. Dr. Rashad SADIGOV**, Azerbaijan State Pedagogical University / Azerbaijan
**Assoc. Prof. Dr. Ramis HASHIMOV**, Derbend branch of Dagestan State University / Russia, The Dagestan Republic

DOI: https://doi.org/10.36719/2709-4197/2023/2/1

**Şəfəq Əhmədova**
Bakı Dövlət Universiteti
siyasi elmlər üzrə fəlsəfə doktoru
shafag.ahmadova@gmail.com

# AZƏRBAYCAN DÖVLƏTÇİLİK ƏNƏNƏSİNDƏ İNFORMASİYADAN İSTİFADƏ YOLLARI VƏ İMKANLARI

***Açar sözlər:*** *informasiya, dövlətçilik, sosial münasibətlər, idarəçilik, maraqlar*

***Keywords:*** *information, statehood, social relations, administration, interests*

İnformasiyanı istifadə etmədən dövlət mövcud ola bilməz. Bunun da yolları siyasi rejimdən, idarəçilik sisteminin xüsusiyyətlərindən, tarixən formalaşmış informasiyanın toplanılması, qorunub saxlanılması və ötürülməsi ənənəsindən asılıdır.

Məlumat, yəni informasiya təhlükəsizliyi insan cəmiyyətinin təməlinin təşkil edən əsas fəaliyyət prinsipləri (təbii mühit, insan, yeni əhali, cəmiyyətin siyasi təşkili, yəni dövlət, onun daxili quruluşu və sistem əsasları, beynəlxalq nizam və onu qoruyub saxlayan müqavilələr və sazişlər məcmusu, siyasi fəaliyyətin əsasında duran maraqlar, mənafelər, bunların içində əsas, aparıcı olanlar və s.) təşkil edir (Süleymanlı, 2011: 280).

Dövlətin daxilində fərdi və ictimai maraqlar bir-birini tamamladığı kimi, beynəlxalq aləmdə də ayrı-ayrı dövlətlərin maraqları və bəşəri maraqlar bir-birini tamamlamalı, bunun da əsasında vahid inkişaf təmin olunmalıdır. Eyni zamanda dövlətin yaşaması, suverenliyi təmin olunsun deyə onun ərazi bütövlüyü, burada yerləşən yeraltı və yerüstü sərvətlər qorunub saxlanılmalı, dövlətin uğurlu inkişafı və fəaliyyətini təmin edən bütün amillərin

DOI: https://doi.org/10.36719/2709-4197/2023/2/1

normal fəaliyyəti təmin olunmalıdır. Buraya dövlət sirrini təşkil edən bütün məlumatlar da daxildir. Deməli, dövlət əleyhinə, onun bütövlüyünün pozulmasına, sabitliyin saxlanmasına səbəb ola biləcək istənilən təhrif edilmiş məlumatın da gəzdirilməsi informasiya təhlükəsizliyinə qarşı olan bir addım kimi qiymətləndirilməlidir (Abdullayev, 2004: 216).

Müstəqilliyin ilk illərində Azərbaycanda hələ diplomatik korpusun, eləcə də diasporun müasir şəbəkəsi yox idi və belə işlərin lazımi səviyyədə aparılması hələ kifayət qədər çətin idi. Burada müvafiq informasiya-kommunikasiya texnologiyalarının çatışmazlığını da qeyd etmək lazımdır. Bu sahələrdə bütün bu illər ərzində müvafiq işlər görülüb və bu gün artıq öz bəhrəsini verməyə başlayıb. Məlumatların maraqlı ölkələrə və təşkilatlara vaxtında çatdırılması Qarabağ münaqişəsi ilə bağlı problemlərin həllində başlıca rol oynayır. Ən əsası odur ki, ötən əsrlər ərzində azərbaycanlılar müxtəlif yaşayış yerlərindən kütləvi surətdə deportasiya ediliblər, öz doğma yurdlarında məcburi köçkün kimi qalıblar. Bundan əlavə, indiki Ermənistan ərazisində azərbaycanlı əhalinin soyqırımı səviyyəsində kütləvi şəkildə məhv edilməsi və qovulması da geniş ümumiləşdirmələr və müvafiq nəticələr tələb edir. Bu istiqamətdə müəyyən işlər görülür. Müxtəlif ölkələrdə yazılmış kitablar, çəkilmiş sənədli filmlər yayılır, televiziya verilişləri aparılır, müxtəlif dillərdə jurnallarda məqalələr dərc edilir. Bütün bunlar müsbət nəticələr verir. Bununla belə, işi davam etdirmək lazımdır. Çünki Ermənistan hökuməti hələ də revanşist ideyalarından əl çəkmir, Qarabağ ermənilərini separatizmlə bağlı müxtəlif avantüralara sövq edir.

Milli təhlükəsizliyin tərkib hissəsi kimi ölkənin informasiya təhlükəsizliyini təmin edən informasiya müharibəsinin istiqamətlərindən biri də dövlət sirrini ehtiva edən məlumatların qorunmasıdır. Müstəqillik illərində bu istiqamətdə də lazımi işlər görülüb. Milli təhlükəsizlik orqanları informasiyanın mühafizəsinə nəzarət etmək, onun təhrif edilməsinin və ictimai

DOI: https://doi.org/10.36719/2709-4197/2023/2/1

rəyin düzgün formalaşmamasının qarşısını almaq üçün müvafiq milli kadrların hazırlanması ilə məşğul idi. Ölkədə uzun illər davam edən münaqişə şəraitində milli təhlükəsizlik üzrə fədakar və yüksək peşəkar kadrlar tələb olunurdu ki, hal-hazırda onların hazırlanması müvafiq təhsil müəssisələri tərəfindən həyata keçirilir (3).

İnformasiya təhlükəsizliyinin təmin edilməsi iilə bağlı görülən mühüm işlərdən biri də Qarabağ münaqişəsindəki vəziyyətlə bağlı ictimai rəyin formalaşdırılmasıdır. Burada mühüm problemlərdən biri qaçqın və məcburi köçkünlərlə bağlı ictimai rəyin hazırlanması idi. Bir gündə nəinki ev-eşiyini, işini, həm də qohum-əqrəbasını, dost-tanışını itirən insanlara əhali rəğbət bəsləməli idi. Hamının yaşadığı problemlər çərçivəsində milli kimliyin təmin edilməsi olduqca vacib idi. Yalnız birləşməklə, zəruri milli-mənəvi norma və dəyərləri mənimsəməklə yüz minlərlə insanın məhrumiyyət və iztirablarla üzləşdiyi bu ağır vəziyyətdən sağ çıxmaq mümkün olmuşdur (Əhmədov, 2012: 391-410).

Erməni quldur birləşmələri ilə açıq toqquşmalar zamanı müxtəlif yerlərdən didərgin düşmüş insanların, ayrı-ayrı bölgələrdə, yəni şəhərlərdə, qəsəbələrdə, kəndlərdə yaşayan insanlar k imkan daxilində ehtiyacı olanlara kömək edirdi. İnsanların mənəvi-əxlaqi birliyi sayəsində bütün bunlar 2020-ci ildə 44 günlük zəfərli müharibə ilə başa çatan qələbə çalmasında reallaşdı.

Gənc suveren dövlətdə informasiya təhlükəsizliyinin formalaşmasına dair bu qısa icmal göstərir ki, bu sahədə çoxlu, öz həllini gözləyən problemlər var. Ölkələrin artan qarşılıqlı asılılığı və dünya düzəninin inkişafının qeyri-müəyyənliyi ölkə qarşısında milli təhlükəsizliyin təmin edilməsi ilə bağlı yeni vəzifələr qoyur ki, bunun da mühüm hissəsi münaqişədən sonrakı dövrdə informasiya təhlükəsizliyinin təmin edilməsidir (Aslanlı, 2009: 120).

DOI: https://doi.org/10.36719/2709-4197/2023/2/1

## Ədəbiyyat

1. Süleymanlı, N. (2011). Qarabağ münaqişəsinin informasiya modeli. Bakı: Hərbi nəşriyyat, 280 s.
2. Abdullayev, E. (2004). Qarabağ problemi beynəlxalq hüquq müstəvisində. Bakı: "Təhsil", 216 s.
3. Cyber security Trends and Solutions for the New Decade New Year, New Risks: What Can We Expect From The World Of Cybersecurity In 2020. By Ray Pompon January 17, 2020. https://www.informationsecuritybuzz.com
4. Əhmədov, E. (2012). Ermənistanın Azərbaycana təcavüzü: təhlili xronika (1987-2011). Bakı: Ensiklopedik nəşr., s.391-410.
5. Aslanlı, A. (2009). Qarabağ problemi: tarixi, mahiyyəti, həll prosesi. Bakı: My Media, 120 s.

DOI: https://doi.org/10.36719/2709-4197/2023/2/1

**Nazilə Abdullazadə**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
pedaqogika üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0002-1829-7178
nazile.s.m.d@mail.ru

# HƏSƏN MİRZƏYEVİN GÖRÜŞLƏRİNDƏ HEYDƏR ƏLİYEV ŞƏXSİYYƏTİ

*Nə qədər ki Azərbaycan var, mən də varam. Mən isə Azərbaycanda əbədi olacağam*
***Heydər Əliyev***

***Açar sözlər:*** *Həsən Mirzəyev yaradıcılığı, vətəndaş, alim, Heydər Əliyev, dövlətçilik, elmi təfəkkür, bədii yaradıcılıq*
***Keywords:*** *works of Hasan Mirzayev, citizen, scholar, Haydar Aliyev, statehood, scientific thinking, artistic creativity*

Zaman və tarix yaddaşında bir çox şəxsiyyətlərin adını, əməllərini yaşadır. Bunlardan bəziləri istilaçılığı, qəddarlığı, insanlığa qənimi ilə yadda qalır, bir qismi ixtiraları, kəşfləri, ideyaları, bəşəriyyətə töhfələri ilə adlarını əbədiləşdirir, bir qismi də böyük insan, vətəndaş, xalqın xilaskarı kimi əbədiyyən könüllərdə yuva qurur. Azərbaycan xalqının tarixində belə şəxsiyyətlər çoxdur. Onlardan biri – Heydər Əliyev xalqın dövlətçilik tarixinə, özgürlüyünə, müstəqilliyinə imza atan şəxsiyyət, Müstəqil Azərbaycan Respublikasının qurucusu, azərbaycançılıq, özgürlük, milli ideologiya anlayışlarının, maddi-mənəvi irsin  olmuş qoruyucusu olmuşdur.

Mənsub olduğu peşə və silki mənsubiyyətindən asılı olmayaraq, tarixçi, filoloq, siyasətçi, müəllim, şair, jurnalist, tələbə, şair Heydər Əliyev şəxsiyyətinə öz baxış bucağından yanaşmış, onun çoxşaxəli fəaliyyətində bütün sahələrə aid

DOI: https://doi.org/10.36719/2709-4197/2023/2/1

fikirlərindən bəhrələnmişdir. Heydər Əliyev ideyalarının davamçısı, şəxsiyyətinin yorulmaz təbliğatçılarından biri də Azərbaycan filoloji fikir tarixinin tanınmış nümayəndəsi, filologiya elmləri doktoru, Əməkdar elm xadimi, şair-publisist Həsən Mirzəyev olmuşdur. Həsən Mirzəyevin ulu öndərlə səmimi görüş və münasibətləri olmuş, bu görüşlərdə alim öz əməli fəaliyyəti, cəsarətli çıxışları ilə vətəndaş missiyasını yerinə yetirmişdir. Təsadüfi deyil ki, Həsən Mirzəyevin 14 cildlik monoqrafiyasının 4 cildində Heydər Əliyev şəxsiyyətinə pərəstiş, xatirəsinə hörmət və ehtiram ifadəsini tapmışdır.

Ümummilli liderlə bağlı H.Mirzəyevin ən sanballı tədqiqat əsəri "Heydər Əliyev Azərbaycan Respublikasının memarı, xilaskarı və qurucusudur" monoqrafiyasıdır. 1990-cı illərdən sonrakı hadisələrin gedişində Heydər Əliyev fenomeninin canlı şahidi Həsən Mirzəyev tarixin o zamankı səhifələrinin çoxunun yazmağa cürət etmədiyi məqamlarını faktlar, dəlillərlə qələmə almış, tarixi həqiqətləri gələcək nəsillərə əmanət qoymuşdur. Ümumiyyətlə, Həsən Mirzəyevin elmi-pedaqoji və ictimai-siyasi fəaliyyətində, müsahibələrində, çıxışlarında, bədii yaradıcılığında belə Heydər Əliyev şəxsiyyətinə böyük ehtiram və pərəstiş duyulur (Mirzəyev, 2008: 888).

Monoqrafiyanın əsas mövzusunu Heydər Əliyevin ictimai-siyasi dövlət xadimi, xalqın xilaskarı, yenilməz lider, nüfuzlu şəxsiyyət kimi fəaliyyəti təşkil edir. Həsən Mirzəyev özünün dil, ədəbiyyat, mənəviyyatla bağlı görüşlərində belə ulu öndərin fikirlərinə söykənir, gəncliyə də Heydər Əliyev şəxsiyyətinin gücündən, əyilməzliyindən, yurduna bağlılığından öyrənməyi tövsiyə edirdi.

Həsən Mirzəyev respublikanın ağır günlərində Heydər Əliyevə müraciət məktubu ünvanlayaraq onu yaradılmaqda olan Yeni Azərbaycan Partiyasına rəhbərlik etməyə dəvət edən bir qrup ziyalıdan biri idi. Həmkarları kimi, o da yaxşı bilirdi ki, məhz Heydər Əliyevin şəxsi nüfuzu, uzaqgörən diplomatik səriştəsi

DOI: https://doi.org/10.36719/2709-4197/2023/2/1

respublikada hərc-mərcliyə son qoyar, respublikanın doğulmaqda olan iqtisadi potensialını, talan edilən təbii sərvətlərini, illər boyu totalitar rejimin altında inləyən xalqı böhrandan qurtara bilər. Həsən müəllimin də imzaladığı müraciətdə deyilirdi: "Möhtərəm Heydər bəy! İndiki vəziyyətdə bu çətin, məsuliyyətli işi respublikada öz üzərinə götürməyə qadir yeganə şəxs Sizsiniz! Uzun illər əldə etdiyiniz dövlət quruculuğu təcrübələrinə əsaslanaraq Siz qısa müddətdə Azərbaycanda geniş xalq kütləsini əhatə eləyəcək çox böyük, güclü, nüfuzlu və işlək bir partiya yaratmağa qadirsiniz. …Yeni Azərbaycan Partiyasına bu gün rəhbərlik etməyə qadir olan yeganə mütləq lider Siz ola bilərsiniz və ya yalnız bu halda yaranmaqda olan partiya öz qarşısına qoyduğu məqsədə çatacaq, respublikanın bütün zümrələrindən olan xalq kütləsini öz ətrafında birləşdirəcək. Azərbaycanın siyasi, iqtisadi həyatında mövcud olan boşluğu dolduracaq, dövlət quruculuğu işlərində öz layiqli töhfəsini verə biləcək" (Mirzəyev, 2010: 18).

Heydər Əliyev obrazı Həsən Mirzəyevin ruhunda varlığında, duyğularında yaşayırdı. Təkcə rəsmi məclislərdə, dövlət tədbirlərində deyil, ailə yığıncaqlarında, el şənliklərində, dost-tanışla söhbətlərində də o, ulu öndərin xatirəsini əziz tutur, xidmətlərindən ağızdolusu və qürurla danışırdı. Milli-mənəvi dəyərlərimizin yorulmaz təbliğatçısı olan alim Heydər Əliyev obrazının ulu öndərə həsr etdiyi şeirlərdə də parlaq təcəssümünü saz-söz sənətində yaşatmağı da aşıqlara tövsiyə edirdi. Sazın tarixini türkün tarixi ilə bağlayan alim gözəl bilirdi ki, söz, musiqi əbədidir və bu əbədiyyət içində ulu öndərin obrazı da əbədi yaşamalıdır.

Gedin deyin hər bir yana,
Heydər tək gəldi, tək getdi.
Səs salın bütün cahana,
Heydər tək gəldi, tək getdi
(Mirzəyev, 2010: 540).

DOI: https://doi.org/10.36719/2709-4197/2023/2/1

Alimin XIV cildliyinin X cildi "Müstəqillik uğrunda mübarizə yollarında" adlanır. Əsərin yazılma səbəbi ilk sətirlərdən oxucuya aydın olur. O yazırdı: "Azərbaycan sinəsindən şırımlar açılan, ona bir pay, buna bir pay verilən vətənin ağrılarını, düşmən ayaqları altındakı torpaqlarımızın harayını, ata-babalarımızın qəbirlərindən səslənən naləsini, yurd-yuvasından didərgin düşmüş zavallı insanların, faciəlin günlərini yaşayan əsirlərin, ata-analarını itirmiş körpələrin harayını eşidən, duyan bir şəxsiyyət lazım idi. Azərbaycan yalnız və yalnız uzaqgörən bir rəhbər – ədalət, cəsarət, qeyrət, yenilməzlik rəmzi kimi şöhrət tapan, əyilməz, məğrur, təkrarsız şəxsiyyət olan, dünya siyasətçilərinin sərkərdəsi, ümummilli lider Əliyev Heydər Əlirza oğlu xilas edə bilərdi (Mirzəyev, 2006: 4).

Həsən Mirzəyev ulu öndərin təkcə sağlığnda deyil, ölümündən sonra da çıxışlarında müsahibələrində, əsərlərində onun parlaq siyasi obrazını yaratmışdır. Xüsusilə Heydər Əliyevin yubiley günlərində Həsən Mirzəyev onun xatirəsinə ehtiramını açıq bidirmiş, Azərbaycanın yalnız Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra özünün geosiyasi imkanlarını gerçəkləşdirməyə başladığını, onun siyasi zəkası sayəsində Azərbaycanın beynəlxalq aləmdən təcrid olunmaq təhlükəsinin aradan qaldırıldığını, Azərbaycanın suverenliyini, müstəqilliyini, ərazi bütövlüyünü qorumağa tam qadir orduya malik olmasını Heydər Əliyevin misilsiz xidmətlərindən biri kimi qeyd etmişdir (Mirzəyev, 2006: 688).

## Ədəbiyyat

1. Mirzəyev, H. (2008). Elmi, pedaqoi fəaliyyətim və ömür yolumdan səhifələr. XII c. Bakı: Elm, 888 s.
2. Mirzəyev, H. (2010). Heydər Əliyev Azərbaycan Respublikasının memarı, xilaskarı və qurucusudur. XIV c. Bakı: Elm, 756 s.

DOI: https://doi.org/10.36719/2709-4197/2023/2/1

3. Mirzəyev, H. (2006). Deputatlıq fəaliyyəti. IX c. Bakı: Elm, 567 s.
4. Mirzəyev, H. (2006). Müstəqillik uğrunda mübarizə yollarında. X c. Bakı: Elm, 688 s.

II BEYNƏLXALQ HUMANİTAR VƏ İCTİMAİ ELMLƏR KONFRANSININ MATERİALLARI
19 may 2023 / 14-16
MATERIALS OF THE II INTERNATIONAL CONFERENCE ON HUMANITIES AND SOCIAL SCIENCE
19 may 2023 / 14-16
DOI: https://doi.org/10.36719/2709-4197/2023/2/1

**Məlahət Qədirova**
AMEA N.Gəncəvi adına Ədəbiyyat İnstitutu
filologiya üzrə fəlsəfə doktoru
melahet.soltanqizi@gmail.com

# BELARUS UŞAQ ŞAİRİ V.LUKŞANIN YARADICILIĞI XX ƏSR AZƏRBAYCAN MƏTBUATINDA

***Açar sözlər:*** *mətbuat, nəşr, tərcümə, poeziya, ədəbi əlaqələr*
***Keywords:*** *press, publication, translation, poetry, literary relations*

XX əsrin 80-ci illərində Azərbaycan mətbuatında Belorus uşaq şairi Valentin Lukşanın yaradıcılığı diqqəti daha çox cəlb edir. Onun kiçikyaşlı məktəblilər üçün şeirlərdən ibarət “Ana əlləri” adlı kitabı 1985-ci ildə “Gənclik” nəşriyyatında çap olunmuşdur. Kitaba daxil edilən şeirləri Azərbaycanın görkəmli şairləri İ.Tapdıq, T.Mahmud, Z.Xəlil və başqaları Azərbaycan dilinə tərcümə etmişdir. Həmin kitaba Azərbaycanın görkəmli uşaq şairi Tofiq Mahmud ön söz yazmışdır.

Ömrünün çox hissəsini uşaqların bir şəxsiyyət kimi formalaşmasına sərf edən, onlara vətən sevgisi aşılayan, kiçikyaşlı oxucuları arxasınca aparmağı bacaran şairin bədii yaradıcılığı bu gün də öz aktuallığını saxlamışdır. Uşaq ədəbiyyatına güclü yaradıcılıq meyli onu kiçikyaşlı uşaqlara sevdirmişdir.

Belarusiyanın bənzərsiz təbiətinə vurğunluq, onun mənzərələrini, büllur bulaqlarını, coşqun çaylarını poetik misralarla təsvir etmək Valentin Lukşa yaradıcıığının əsas səciyyəvi xüsusiyyətlərindəndir.

Şairin poeziyasında doğma vətənin təbiətinin bütün əsrarəngiz gözəlliyi ilə yanaşı onun bərəkətli, bol məhsul gətirən müqəddəs torpaqları da öz əksini tapmışdır.

Onun “Ana əlləri” adlı kitabına daxil edilmiş şeirlər müxtəlif

DOI: https://doi.org/10.36719/2709-4197/2023/2/1

mövzulardadır. "Ana əlləri" adlı şeirində şair ana əllərinin nə qədər qiymətli olduğunu bir daha xatırladır. Anaların müqəddəs bir varlıq olduğunu hamımız anlayırıq. Şair ana əllərinin hər şeyə qadir olduğundan yazır. Evdə, ailədə övladları üçün hər fədakarlığı göstərən ana əlləri xalqının xoşbəxtliyi üçün igid övladlar böyüdür, lazım gəldikdə Vətən üçün fədakarlıq göstərir:

Ölkəyə gərək oldu
Bu mərd ana əlləri,
Od oldu, şimşək oldu
Müharibə illəri.
Əllər-polad əritdi,
Tanklar,
Toplar düzəltdi!
Avtomatlar düzəltdi!

Ana torpaq naminə
Unudub qəmi, dərdi,
Bu əllər hazırlayıb
Cəbhəyə silah verdi.
(Lukşa, 1985: 30)!

Uşaqlar körpə yaşlarında analarına daha bağlı olur. Analarından ayrılıqda özlərini təsəvvür edə bilmirlər. Ana qucağı, ana nəfəsi, ana hərarəti, ana qayğısı daim uşaqları qoruyur, onlara qol-qanad verir. Ana məhəbbəti dünyanın ən böyük və təmənnasız sevgisidir. Uşaqlar elə uşaq yaşından anaların fədakarlığını dərk edir, bu incə məxluqun nə qədər böyük urəyə sahib olduğunu anlayırlar.

Valentin Lukşa "Ana əlləri" adlı şeirində həm də bütün dünyada analara məxsus olan "Səkkiz mart" qadınlar bayramının müqəddəs gün olduğunu xatırladır:

DOI: https://doi.org/10.36719/2709-4197/2023/2/1

Yaxınlaşır bir bayram
Təbiət süfrə açır,
Günəş çıxıb nur saçır.
İndi əlimdə təqvim,
Bu əziz, gözəl günü
Sizə edirəm təqdim.
Səkkiz MART!
Böyük dünya!
Qərq olsun başdan-başa
Hər yan yaz günlərinə,
Eşq olsun
Həm anaya
Həm bütün analara
Həm
Ana əllərinə
(Lukşa, 1985: 52).

Valentin Lukşanım müxtəlif mövzularda yazdığı şeirlər XX əsrin sonu, XXI əsrin əvvəllərində müntəzəm olaraq müxtəlif sənətkarların tərcüməsində Azərbaycan mətbuatında dərc olunmuşdur.

## Ədəbiyyat

1. Lukşa, V. (1985). Ana əlləri. Bakı: “Gənclik”, 52 s.

DOI: https://doi.org/10.36719/2709-4197/2023/2/1

**Aysel Şükürova**
Azərbaycan Respublikası DİN-in Polis Akademiyası
filologiya üzrə fəlsəfə doktoru
aysel_edu@yahoo.com

# METONİMİYA HAQQINDA QEYDLƏR

***Açar sözlər:*** *koqnitiv dilçilik, diskurs, nitq, metonimiya, informasiya, kommunikasiya*

***Keywords:*** *cognitive linguistics, discourse, speech, metonymy, information, communication*

Müasir dilçilikdə metonimiyanın müxtəlifsistemli dillərin materialları əsasında daha dərin tədqiqata cəlb olunmasına ehtiyac duyulur. Belə ki, semantik dəyişikliklərin əsas növlərindən biri sayılan metonimiya həm dilə, həm də nitqə nüfuz edir. Qeyd etmək lazımdır ki, əsasında universal semantik qanunların durduğu metonimik köçürmə nitqdə ifadəliliyin ən geniş yayılmış üsullarından biridir və sözün məcazi mənada işlənməsi deməkdir. Metonimiyalar mətnlərdə, fərqli diskurs nümunələrində müntəzəm olaraq yaranır və onlar sözlərin mənalarının formalaşmasında, dilin lüğət tərkibinin artırılmasında böyük rol oynayır.

Qeyd etdiyimiz kimi, metonimiyalar müxtəlif diskurs nümunələrində işlənir. Məsələn, ingilis dilində tez-tez verballaşan metonimiyalardan bəzilərinə nəzər yetirək:

Metonimik köçürmənin bir növü olan sinekdoxa ilə yaranmış *All hands on deck* (Bütün əllər göyərtədə) ifadəsinin əsasında *deck* yəni, *göyərtə* leksemi durur və bununla da göyərtədəki əllərin sahibinin dənizçilər olmasına işarə edilir. Bundan əlavə, müasir dövrdə *All hands on deck!* ifadəsi "... *mövcud olan hər kəsin təcili yardım etməsi üçün çağırış*" kimi işlənir (1).

DOI: https://doi.org/10.36719/2709-4197/2023/2/1

İngilisdilli iqtisadi diskurs nümunəsinə aid olan *Wall Street* metonimiyasının işlənməsinə nəzər yetirək:

"*Wall Street is joining a worldwide slump for financial markets on Monday amid worries about how badly the omicron variant, inflation and other forces will hit the economy*" (2).

Beləliklə, metonimiyadakı semantik sıxılma zamanı cümlənin bitişik, əlaqəli üzvlərindən biri yox olan digər üzvün məzmununa işarə edərək onun vəzifələrini öz üzərinə götürür.

## Ədəbiyyat

1. https://www.dictionary.com/browse/all-hands-on-deck#google_vignette
2. https://www.washingtontimes.com/news/2021/dec/20/wall-street-joins-global-slump-for-stocks-sp-500-d/

DOI: https://doi.org/10.36719/2709-4197/2023/2/1

**Arəstə Xudiyeva**
AMEA Folklor İnstitutu
dissertant
lalka81@live.co.uk

# AZƏRBAYCAN VƏ İNGİLİS DASTANLARINDA "DƏLİ" EPİTETİNİN SEMANTİKASI

***Açar sözlər:*** *epik onomastika, Kitabi-Dədə Qorqud, Azərbaycan dastanları, dəli, berserk, "Koroğlu" dastanı*
***Keywords:*** *epic onomastics, Kitabi-Dada Gorgud, Azerbaijani epics, crazy, berserk, "Koroglu" epic*

Epik abidələrdə dəli mənalı və ya epitetli adlar ən çox hərbi tematika ilə bağlıdır. Türk və german xalqlarının epik yaradıcılığında "dəli" epitetli obrazların təhlil etdikdə, onların gizli kultlar və arxaik cəmiyyətlərdəki gizli ittifaqlarla bağlantısını düşünmək olar. Qədim german tayfalarının arasında hərbi kultlarla bağlı gizlin kişi və qadın ittifaqlarının olması təxmin edilir.

Bu ictimai birliklərin yaranması german tayfaları arasında ibtidai icma quruluşunun dağılmağa başlaması və matriarxatın sona çatması mərhələsi ilə əlaqələdirilir. Bu ittifaqdakılar özlərini həlak olduqda hərb tanrısına qurban hesab edir, eyni zamanda da qalib gəldikdə ələ keçirdiklərini hərb tanrısına qurban verirdilər. German mənşəli xalqların dəli qəhrəmanları – berserkləri elmi ədəbiyyatda ən çox məşhur olan kişi hərbi ittifaqı saymaq olar (West, Martin, 2007: 525).

Qədim oğuzlar arasında da savaşla bağlı bu tip insan qruplarının (oğuz eposunda "dəlilər"in) olmasına baxmayaraq, kişi hərbi ittifaqları haqqında elmi tədqiqatlar aparılmamışdır. "Kitabi-Dədə Qorqud"da dəlilərin belə bir gizli birliyinin mövcudluğuna yalnız Bamsı Beyrəklə bağlı boyda rastlana bilirik.

DOI: https://doi.org/10.36719/2709-4197/2023/2/1

**“Dəli” epitetli obrazlar.** “Kitabi-Dədə Qorqud”da Dəli Qarcar və onun cəmiyyətin həyatından kənarda qalan 40 igid yoldaşı haqqında məlumatlar böyük maraq doğurur. Dəli Qarcar kişi ittifaqını təmsil etməsi, onun ancaq kişi dostları əhatəsində, el-obadan ayrı yaşamasında, evlənmənin əleyhinə olmasə və evlənmək istəyəni öldürməsində deyil, həm də bu evliliyə (Beyrəklə öz baçısının ailə qurmasına) məcburən razılıq verdikdən sonra başlıq olaraq yalnız erkək heyvanlar tələb etməsindədir. Döndü, dedi: “Dədə, bacımın yolunda mən nə istəsəm, verərsənmi?”. Dədə dedi: “Verərik, de, görək nə istəyirsən?”. Dəli Qarcar dedi: “Min buğra gətirin ki, maya görməmiş olsun. Min də ayğır gətirin ki, ilxıya girməmiş olsun. Min də qoyun üzü görməmiş qoç gətirin” (Kitabi-Dədə Qorqud, 1988: 154).

Füzuli Bayat türk mədəniyyətində dəli qavramına aid tədqiqatında qeyd etdiyi kimi, “Kitabi-Dədə Qorqud” eposunda iki dəli-qəhrəman tipi vardır. Bunlardan birinci tipə aid edilənlər psixi-mənəvi keyfiyyətlərinə görə ətrafdakılardan fərqlənsələr də, cəmiyyətdə ümumi, qəbul olunmuş normalara, adət-ənənələrə uyğun hərəkət edirlər. Bu dəlilər sırasına Dəli Tondar, Dəli Budaq, Dəli Evrən və başqaları aiddirlər. Onlar Oğuz elinin ierarxik sistemində yer alırlar, hərbi çağırışlara, döyüşlərə qatılırlar.

İkinci qrup dəli tiplərinə Dəli Qarcar, Dəli Domrul kimi igidlər aiddirlər. Onlar, Füzuli Bayatın da yazdığı kimi, Oğuzun işinə qarışmırlar. Oğuzlar da onların işinə qarışmadıqları kimi, onları da öz işlərinə qarışdırmırlar. Tək kəlmə ilə bu dəlilər mümkün olduğu qədər cəmiyyətin əsas işlərindən kənarda buraxılmışlar (Bayat, 2018: 72). Dəli Qarcarın numunəsində görünür ki, oğuzların onları hansısa məsələdə zorla faciəyə səbəb ola bilər. Dəli Qarcar bacısının ailə qurmasının əleyhinədir. El qaydasınca qıza elçi düşənləri, o, qətlə yetirir. Buna baxmayaraq, Oğuzlar Dəli Qarcara qarşı hər hansı

DOI: https://doi.org/10.36719/2709-4197/2023/2/1

cəzalandırıcı tədbir görmək barədə belə düşünmürlər. Dəli Qarcar hətta Oğuzda övliya, müqəddəs sayılan Qorqut ataya əl qaldırmaqdan çəkinmir, Məcbur qalıb bacısının evlənməyinə razılıq verdikdə isə başlıq üşün anormal tələblər irəli sürür.

Bu faktlardan çıxış etsək deyə bilərik ki, ikinci kateqoriyaya daxil dəli obrazları yeraltı, xaotik aləmlə bağlı ruhlar və ya şaman arxetiinə daha yaxındırlar. Oğuz mifologiyasına aid tədqiqatların müəllifi, professor Seyfəddin Rzasoy birmənalı şəkildə göstərir ki, "Kitabi-Dədə Qorqud" və "Koroğlu" dastanlarında dəli adını daşıyan qəhrəmanlar xaosla bağlı obrazlardır (Rzasoy, 2009: 207). Bütün anarxiya və xaotik elementlərə baxmayaraq, Oğuz cəmiyyəti onların bu şəkildə qəbul edir. "Kitabi-Dədə Qorqud" eposunda görürük ki, onlar qarşı dura bilən qüvvlələr də adi oğuzlar deyil, Allah, onun mələkləri (Əzrayıl), peyğəmbərləridir (burada Dədə Qorqud). Yalnız Allah (ilahi ilə bağlı qüvvələr) onlara əmməllərinə görə cəza verə bilər və ya bağışlaya bilər.

Dəli epitetinin digər aktiv yer aldığı dastan "Koroğlu"dur. Əgər "Koroğlu" dastanında qəhrəman qütbündə olan adları ümumi şəkildə mövzu dairəsinə görə təsnif etsək, əsasən aşağıdakı iki qrupun seçildiyini görə bilərik:

1) Obrazın fiziki-psixoloji xarakteri ilə bağlı olanlar:

Tüpdağıdan – Koroğlunun dəlisi;

Tanrıtanımaz – Koroğlunun dəlisi;

Sərxoş – Koroğlunun dəlisi;

Keçəl Həmzə – Həsən paşanın Koroğlunun atını oğurlayan nökəri.

2) Obrazın sosial mənşəyi, sinfi xaraktri ilə bağlı olanlar:

Dəmirçioğlu – Koroğlunun dəlisi;

Giziroğlu – Osmanlı bəyi, sonradan Koroğlunun silahdaşı;

Qəssaboğlu Eyvaz - Koroğlu dəlisi;

Gürcüoğlu – Koroğlu dəlisi və s.

Obrazın fiziki-psixoloji xarakteri nəzərə çarpdırılmaqla, epik qəhrəmanın hər hansı istənilən situasiyada hərəkətinin

DOI: https://doi.org/10.36719/2709-4197/2023/2/1

qanunauyğunluğuna istinad edilir. Koroğlunun, onun silahdaşlarının ağılasığmaz, hətta ağılsızlıq kimi görünən hərəkətlərinin (Koroğlunun atın belində sıldırım qayadan atlanması, təkbaşına böyük ordulara qarşı vuruşması, Bolu bəyə kömək məqsədilə özünü düşmənə təslim etməsi, bir öküzü bişirib tək yeməsi və s.) izahını onun dəli epiteti verir.

İngiliscə "qəzəbli", "qızğın" mənası daşıyan "berserk" kəlməsi qədim skandinav və ya qədim Norveç dilində "ayı dərisi" anlamı verir. Qədim german-skandinav mifologiyasına görə berserklər özlərini həm müharibə tanrısı, həm də baş tanrı olan Odinə həsr etmiş, xüsusi, vergili döyüşçülər idilər (Berserker, 1891: 586). "Qunnlauq haqqında saqa"da Berserk-Tororm heç bir qılıncdan qorxmur, ona dəyən silah öz-özünə kütəlir.

Beləliklə, biz görütük ki, "dəli" komponentli epik adlar çox qədim dövrlərin mifoloji təsəvvürləri ilə bağlanır və bu obrazlar folklora transformasiya olunaraq yeni epik məna qazanır. Epik qəhrəmanların ağılasığmaz, hətta ağılsızlıq kimi görünən hərəkətlərinin izahı da bəzən "dəliliyin" bu arxaik semantikasında axtarmaq lazım gəlir.

## Ədəbiyyat

1. West, Martin, L. (2007). Indo-European Poetry and Myth. Oxford University Press, 525 p.
2. Kitabi-Dədə Qorqud. (1988). Tərtib və transkripsiya edənlər: F.Zeynalov, S.Əlizadə. Bakı: Yazıçı, 265 s.
3. Bayat, F. (2018). Türk mədəniyyətində dəli və dəlilik. İstanbul: Ötükən, 262 s.
4. Rzasoy, S. (2009). Oğuz mifologiyası. Bakı: Nurlan, 363 s.
5. Berserker. (1891). Entsiklopedicheskiy slovar Brokgauza i Efrona, t.III. Sankt-Peterburg, 586 s.

DOI: https://doi.org/10.36719/2709-4197/2023/2/1

**Yüzdanə Cabbarlı**
AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu
uzdana93@mail.ru

# HEYDƏR ƏLİYEVİN KADR SİYASƏTİ SOSİAL-İQTİSADİ UĞURLARIN ƏSAS AMİLİ KİMİ (XX ƏSRİN 70-Cİ İLLƏRİ)

***Açar sözlər:*** *Heydər Əliyev, kadrlar, kadr siyasəti, sosial, iqtisadi*

***Keywords:*** *Haydar Aliyev, personnel, personnel policy, social, economic*

Dövlətin müxtəlif istiqamətlərdə fəaliyyətinin uğurlu olması dövlət işçilərinin yerinə yetirdikləri işin keyfiyyətindən asılıdır. Odur ki, bütün dünyada kadr siyasəti vacib istiqamətlərdən biri olduğu kimi Azərbaycan SSR rəhbərliyinin fəaliyyətində də prioritet məsələlərdən biri olmuşdur.

Azərbaycan KP-nın 1969-cu iyul plenumunda Heydər Əliyevin Azərbaycan KP MK I katibi vəzifəsinə seçilməsi ilə Azərbaycan SSR özünün yeni inkişaf mərhələsinə daxil oldu. 1960-cı illərdə Respublika iqtisadiyyatının inkişafında özünü göstərən mənfi meyillər 1969-cu il avqust plenumunda təhlil olundu və başlıca səbəblərdən biri kimi kadrların seçilməsinə, yerləşdirilməsinə və tərbiyə olunmasına dair prinsiplərin kobud surətdə pozulması göstərildi.

Heydər Əliyevin respublikada hakimiyyətə gəlməsinə qədər kadr siyasəti tam formalaşmamış, kadrların hazırlanmasında daha çox dövlətin ideoloji məqsədləri naminə olan prinsiplər əsas tutulduğu üçün ayrı-ayrı nazirliklərin, partiya komitələrinin, təhsil müəssisələrinin və digər mühüm dövlət müəssisələrinin fəaliyyətində kadr işi sahəsində ciddi problemlər mövcud idi. Bu problem bütünlüklə respublika

DOI: https://doi.org/10.36719/2709-4197/2023/2/1

iqtisadiyyatına o cümlədən sənayedə, kənd təsərrüfatında, və digər sahələrdə istehsalının artım göstəricisinə mənfi təsir etmişdi. Bu geriləmələr xüsusilə kimya sənayesinin (29,3 milyon rubl), neft emalı və neft kimyasının (21,4 milyon), energetikanın, ət və süd sənayesinin, əlvan metallurgiyanın payına düşürdü (1). 1969-cu ildə SSRİ-də ümumi milli məhsul 43% artdığı halda, Azərbaycan SSR-də bu artım cəmi 22% təşkil etmişdir (Qasımov, 1969-2003).

Kadrlarla aparılan işin təməl prinsiplərinin müzakirə olunduğu avqust plenumundan sonra Azərbaycan KP MK-nın daha dörd (1969-cu il dekabr, 1970-ci il mart, avqust və dekabr) plenumlarında mühüm dövlət postlarındakı kadrların tapşırılan iş üçün məsuliyyətini yüksəltmək, işdə olan nöqsanları aradan qaldırmaq üçün tədbirlər müəyyən edildi. Azərbaycan SSR Ali Soveti, Nazirlər Soveti, Daxili İşlər nazirliyi, Prokurorluq və başqa mühüm dövlət idarəetmə orqanlarından başlayaraq bir çox sahələrdə yeni kadr islahatları keçirildi. İdarəçilikdə kollegiallığa ciddi riayət olunması üçün, lakin bu ad altında şəxsi məsuliyyətdən yaxa qurtarmaq cəhdlərinə, bürokratizimə qarşı qəti mübarizə aparılmışdır.

Heydər Əliyev tərəfindən aparılan düzgün kadr islahatları, düşünülmüş siyasət nəticəsində Azərbaycan SSR-də 1969-1982-ci illərdə sosial-iqtisadi, mədəni və mənəvi sahələrdə böyük uğurlar qazanılmışdır. Beləki, 1960-cı illərlə müqayisədə sənaye istehsalı 2,2 dəfə, kənd təsərrüfatının ümumi məhsulu 2 dəfə, milli gəlir 4,5 dəfə artdı (Azərbaycan Kommunist Partiyasının 30-cu qurultayının materialları, 1981).

Beləliklə, Ulu öndərin mükəmməl zəkası ilə həyata keçirilmiş kadr siyasəti Respublikanı keçmiş İttifaqın qabaqcıl respublikaları cərgəsinə çıxardı və əsas sosial-iqtisadi göstəricilərinə görə Azərbaycan əksər respublikaları geridə qoydu. Gələcək müstəqil Azərbaycanın sosial, iqtisadi, elmi-

DOI: https://doi.org/10.36719/2709-4197/2023/2/1

texniki potensialının hazırlanması böyük uzaqgörənliklə həyata keçirildi və güclü kadr potensialı yaradıldı.

## Ədəbiyyat

1. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi İctimai-Siyasi Sənədlər Arxivi Fond 1, siyahı 56, iş 9. Azərbaycan KP MK-nın 5 avqust 1969-cu il tarixli XVII plenumunun stenoqramı.
2. Qasımov, Ə. (1969-2003). Heydər Əliyev və Naxçıvan Muxtar Respublikasının inkişaf tarixi. Bakı: "Turxan" NPB.
3. Azərbaycan Kommunist Partiyasının 30-cu qurultayının materialları. (1981). Bakı.

DOI: https://doi.org/10.36719/2709-4197/2023/2/1

**Xavər Hüseynova**
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti
magistrant
xaverzengilanlix@gmail.com

# AŞIQ MUSİQİSİNDƏ VARİANTLILIQ PRİNSİPİNİN TƏZAHÜRÜ (SARITEL HAVALARININ TİMSALINDA)

***Açar sözlər:*** *aşıq, Qarabağ mühiti, Abdalgülablı Valeh, Baş sarıtel, Orta sarıtel*
***Keywords:*** *ashuq, Karabakh environment, Abdalgulabli Valeh, Bash saritel, Orta saritel*

Kökü qədim tarixə bağlı olan və əsrlər boyu inkişaf edərək bu günümüzə gəlib çatan aşıq sənəti ayrı-ayrı mühitlərdə fərqli özəlliklər kəsb etmişdir. Bu mühitlərdən bir olan Qarabağ aşıq mühitinin sənətkarları tərəfindən yaradılan aşıq havaları özünəməxsus xüsusiyyətləri ilə seçilir. Qarabağ aşıq mühitinin yaradıcı – bəstəçi sənətkarlarından biri Aşıq Valehdir.Aşıq Valeh bir sıra aşıq havaları yaradaraq aşıq sənətinə öz töhfələrini vermişdir. Aşıq Valehin yaratdığı ehtimal olunan "Sarıtel" havaları ilə bağlı bəzi məsələlərə toxunmaq istərdik. Bildiyimiz kimi, aşıq yaradıcılığında iki "Sarıtel" havası mövcuddur: "Baş sarıtel" və "Orta sarıtel" (Qasımlı, 2017).

Bəzi aşıqlar "Baş sarıtel" havasını zil pərdələrdə ifa edərək, onu "Ayaq sarıtel" adlandırırlar. Yəni eyni melodiya sazın orta registrinə transpozisiya edilib başqa bir hava kimi təqdim olunur. Bu isə bəzi ustadlar tərəfindən qəbul olunsa da, digər ustadlar tərəfindən qəbul olunmur. Əslində "Ayaq sarıtel" adlanan hava yoxdur. Bu, "Baş sarıtel"-in ifaçılıq variantıdır. Geniş səs diapazonuna malik sənətkarlar "Baş sarıtel"-i zil pərdələrdə oxuya bilər (Qasımlı, 2011). İlk dəfə bu havanı zil pərdələrdə

DOI: https://doi.org/10.36719/2709-4197/2023/2/1

oxuyan, Gədəbəy aşıq məktəbinin yetirməsi - Aşıq İsfəndiyar olub. Aşıqlar arasında həmin sarıtelə "Zil sarıtel" və ya "Beçə sarıtel" də deyirlər. Zil pərdələrdə oxumaq sənətkarların musiqi zövqündən, eləcə də tamaşaçı istəyindən asılıdır, amma bu o demək deyil ki, fərqli bir hava ortaya çıxmış olur. "Baş sarıtel" havası ilk dəfə ağır tempdə oxunub. Bu havanı ənənəvi şəkildə ifa edən, əslən Təbriz - Qaradağ məktəbinin yetirməsi olan aşıq Hüseyn Cavan olub. Sonralar Gədəbəy aşıq məktəbinin nümayəndəsi Aşıq Sayad ilk dəfə olaraq havanın oxunuş formasını dəyişib, axırıncı bəndə zil əlavə edib (Məmmədov, 2011). Məşhur saz ifaçısı Ədalət Nəsibov da havaya yeni nəfəs verərək, fərqli tərzdə çalıb-oxumuşdur. Tovuz aşıq məktəbinin əvəzolunmaz sənətkarlarından olan Aşıq Xanlar məlahətli səsi ilə, fərqli boğazları ilə bu havanı bir az da populyarlaşdırmışdır. Bildiyimiz kimi,"Baş sarıtel" havası baş pərdə kökündə oxunur və onun intonasiya məzmunu segah məqamına uyğundur. Havanın oxunması zamanı isə gəraylı şeir şəklindən istifadə olunur. "Baş sarıtel"-ə gəraylı şeir şəkli seçərkən, aşıqlarımız, təbiət mövzusunda yazılmış gəraylılara müraciət edirlər (Namazov, 2004). Qarabağ aşıq mühitinə xas olan "Baş sarıtel" havası Gədəbəy aşıqlarının repertuarında özünəməxsus şəkildə ifa olunmuşdur. Gəncəbasar aşıq mühitində bu hava lirik tərzdə ifa olunur. Lakin digər mühitlərimizdən biri olan Borçalı aşıq mühitində bu hava ləngərli tərzdə ifa olunur. Beləliklə, belə nəticəyə gəlmək olar ki, bu hava bir çox aşıq mühitlərinin repertuarında özünəməxsus yer tutmuşdur. Əksər aşıq mühitlərində populyar olan "Baş sarıtel" havası zəngin melodik-ritmik quruluşa malik olub, eyni zamanda solo-instrumental variantda da geniş yayılmışdır. "Baş sarıtel" havası təkcə aşıqların repertuarında deyil, həmçinin xanəndələrin də repertuarında özünəməxsus yer tutur (Nəbiyeva, 2019).

Digər Sarıtel havası isə - "Orta sarıtel" havasıdır.Adından göründüyü kimi, bu hava, sazın orta pərdə kökündə ifa olunur.

DOI: https://doi.org/10.36719/2709-4197/2023/2/1

Sarıtel aşıq havaları qrupuna diqqət etdikdə nəzərə çarpır ki, musiqi çalarları oxşar olsa da, fərqli məqamda ifa olunur. Belə ki, "Orta sarıtel" Rast məqamı ilə müqayisə olunur. "Baş sarıtel" kimi "Orta sarıtel" də gəraylı şeir formasına əsaslanır. "Baş sarıtel"-dən fərqli olaraq "Orta sarıtel" bir qədər ritmik havadır (Ozan-Aşıq Ensiklopediyası, 2019). Aşıqlar "Orta sarıtel"-in oxunuşu üçün lirik məzmunlu gəraylılara müraciət edirlər. "Orta sarıtel" havasının mahir ifaçılarından Aşıq Kamandarın, İmran Həsənovun, Ədalət Nəsibovun, Aşıq Müseyibin, Əkbər Cəfərovun, Ürfan Əlinin və digərlərinin adlarını çəkə bilərik. "Baş sarıtel" havası kimi "Orta sarıtel" havasını da fərqli mühitlərin aşıqları özünəməxsus formada ifa etmişdir. Borçalı aşıq mühiti ilə Göyçə aşıq mühiti arasında fərqli oxunuş tərzi var. Ustad sənətkar Aşıq Kamandar "Orta sarıtel" havasını özünəməxsus şəkildə, ritmik tərzdə ifa edib. Göyçə aşıq mühitinin yetirməsi olan Cilli Aşıq Müseyib isə "Qaragöz" rədifli "Orta sarıtel"-i fərqli şəkildə ifa edib. Aşıq bu havada, "Baş sarıtel" havasının boğazlarından istifadə edərək "Orta sarıtel"-i yeni bir variantda oxuyub. Aşıq yaradıcılığının tədqiqatçılarından olan Tariyel Məmmədov və İlqar İmamverdiyev həm "Baş sarıtel", həm də "Orta sarıtel" havalarını nota köçürmüşdür. Beləliklə, gördüyümüz kimi, Sarıtel aşıq havaları qrupunun timsalında aşıq musiqisində variantlılıq prinsipinin təzahür formalarını izləmək mümkündür (Ozan-Aşıq Ensiklopediyası, 2020).

## Ədəbiyyat

1. Qasımlı, M. (2017). Folklor və ədəbiyyat araşdırmaları. Bakı: "Elm və təhsil".
2. Qasımlı, M. (2011). Ozan aşıq sənəti. Bakı: "Uğur" nəşriyyatı.
3. Məmmədov, T. (2011). "Azərbaycan aşıq yaradıcılığı" dərsliyi. Bakı: "Apastrof".

DOI: https://doi.org/10.36719/2709-4197/2023/2/1

4. Namazov, Q. (2004). Aşıqlar (1-ci kitab). Bakı: "Səda" nəşriyyatı.
5. Nəbiyeva, A. (2019). Qarabağ aşıq mühiti. Bakı: "Təknur" nəşriyyatı.
6. Ozan-Aşıq Ensiklopediyası (iki cilddə – I cild). (2019). Bakı: "Gənclik" nəşriyyatı.
7. Ozan-Aşıq Ensiklopediyası (iki cilddə – II cild). (2020). Bakı: "Gənclik" nəşriyyatı.

II BEYNƏLXALQ HUMANİTAR VƏ İCTİMAİ ELMLƏR KONFRANSININ MATERİALLARI
19 may 2023 / 30-34
MATERIALS OF THE II INTERNATIONAL CONFERENCE ON HUMANITIES AND SOCIAL SCIENCE
19 may 2023 / 30-34
DOI: https://doi.org/10.36719/2709-4197/2023/2/1

**Nəzrin Hacıyeva**
Azərbaycan Dövlət Pedaqoji Universiteti Quba filialı
bakalavriat
nezrinhaciyeva781@gmail.com

# AZƏRBAYCAN SAHİLLƏRİNDƏ XƏZƏR DƏNİZİNİN PROBLEMLƏRİ

***Açar sözlər:*** *Xəzər dənizi, hidroloji xüsusiyyətlər, bioloji aləm, səviyyə tərəddüdü, ekoloji problemlər*

***Keywords:*** *Caspian sea, hydrological features, biological world, the level fluctuated, environmental challenges*

Xəzər dənizi Asiya və Avropanın kəsişməsində yerləşən və Yer kürəsinin ən böyük axmaz gölüdür. Biz onu ölçülərinə, özünəməxsus unikal hidroloji və bioloji xüsusiyyətlərinə malik olduğuna görə dəniz adlandırırq. Sahəsi orta hesabla 370 min km$^2$, uzunluğu təxminən 1200 km, eni orta hesabla 320 km, ən enli yeri 466 km, ən ensiz yeri 204 km-dir.

Xəzərin səviyyəsi Dünya okeanı səviyyəsindən təxminən -27 m aşağıda yerləşir. Lakin son günlər apardığımız müşahidələr səviyyənin kifayət qədər endiyini deməyə əsas verir.

Ümumi sahil xəttinin uzunluğu 6380 km-dir. Bunun 825 km-i bizim ölkənin payına düşür. Bildiyimiz kimi Xəzər dənizi həmçinin digər 4 dövlətin də sahillərini yuyur: İran-900 km, Rusiya-695 km, Türkmənistan-1200 km, Qazaxıstan-2320 km. Xəzərin Beynəlxalq normalar çərçivəsində qonşu ölkələrlə olan bölgüsü hələ də öz həllini tam olaraq tapmayıb. Buna səbəb bu kimi daxili su hövzələrinin sahil ölkələri arasında bölgüsü orta xətt prinsipinə əsaslanmalıdır. Lakin İran bu prinsiplə razılaşmır, o orta nöqtə prinsipinə əsaslanmağı təklif edir. Bu isə digər qonşu ölkələrin həm su sərhədlərini pozur, həmçinin də bəzi neft-qaz yataqlarının ölkə sərhəddindən çıxmasına

DOI: https://doi.org/10.36719/2709-4197/2023/2/1

səbəb olar. Orta nöqtə prinsipinə əsasən bölgünün aparılması digər qonşu ölkələr üçün heç bir formada səmərəli deyil və ümumiyyətlə beynəlxalq normalara da uymur.

Xəzər dənizi qapalı su hövzəsi olduğundan o, özünün xüsusi hidroloji rejiminə malikdir. Bu rejimin özünəməxsusluğu bir sıra amillər təyin edir ki, bunlara çay axını, iqlim şəraiti, dənizin dərinliyi və dib relyefi, eyni zamanda sahilin fiziki-coğrafi xüsusiyyəti aid edilir. Çay axını dənizdə, xüsusən də onun sahil zonalarında, temperaturun paylanma xarakterinə, suyun duzluluğuna və sıxlığına böyük təsir göstərir. Bu cür təsir özünü daha qabarıq şəkildə dənizin şimal-qərb sahilində, Volqa çayının mənsəb hissəsində göstərir. Bu təsirin nəticəsində oradakı dəniz suyu ilə açıq dəniz suyunun hidroloji elementləri arasında kəskin fərq mövcuddur. Dənizin hidroloji rejiminə rayonun iqlim şəraiti də böyük təsir göstərir. Yayın aydın və isti günlərində su müəyyən dərinliyə qədər qızır ki, bu da sıxlığın dəyişmə xarakterinə öz təsirini göstərir.

Dənizin dərinliyinin və dib relyefinin də hidroloji rejimin dəyişməsində böyük rolu vardır. Yayda, dənizin dərin yerlərində su istilik yığır ki, bu da qışda, suda temparaturun paylanmasına öz təsirini göstərir. Dib relyefi isə dənizin axın rejiminə təsir edir.

Xəzər dənizinin suyu okean mənşəlidir, dəniz qədim dövrdə okeanla birləşmiş, Aralıq, Qara və Azov dənizləri ilə birlikdə Para Tetis dənizinin tərkibində olmuşdur. Xəzər dənizinin əlahiddə su hövzəsi kimi yaşı 3–5 milyon il hesab edilir. Xəzər dənizinin suyunun orta duzluğu 12,85 ‰ (promil) təşkil edir. Duzluğun aşağı olması dənizin qapalı olması və çay axımlarının böyük olması ilə əlaqədardır. Xəzər suyunda okean sularına nisbətən karbonat və sulfatların miqdarı çox, xloridlərin miqdarı isə azdır. Duzluluq həm şimaldan cənuba, həm də qərbdən şərqə doğru artımla dəyişir. Şimali Xəzərdə duzluq çay mənsəblərdə 0,1 ‰-dən Orta Xəzərin sərhədində 12 ‰-ə, Cənubi Xəzərin şərq sahillərinə doğru isə 13,4 ‰-ə qədər dəyişir.

DOI: https://doi.org/10.36719/2709-4197/2023/2/1

Ərazinin şimal-şərq və şərq sahilləri boyu daha duzlu sular yerləşmişdir. Səbəb bu ərazilərdə çayların tökülməməsidir.

Xəzər dənizinin ekoloji, bioloji və səviyyə tərəddüdü kimi problemləri var.

Xəzər dənizinin Azərbaycan Respublikasında bir sıra ekoloji problemləri mövcuddur. Xəzərin çirklənmə səbəbləri müxtəlifdir:

- Xəzərə axan çaylar vasitəsilə sahil zonasında yerləşən şəhərlərdən və sənaye obyektlərindən axan çirkab sulardır;
- Dənizdə neft hasilatı və nəqli ilə əlaqədar çirklənmə;
- Xəzər dənizinin səviyyəsinin qalxması nəticəsində sahil zonasında su altında qalmış mənbələrdən çirklənmə;
- Üzən vasitələrin nəql və daşınma zamanı (tankerlərdən) neft və neft-kimya məhsullarının sızması;
- Kənd təsərrüfatı sahələrində istifadə olunan gübrələrin bir hissəsinin yağıntı və suvarma suları ilə yuyularaq çaylar, kanallar və meliorasiya zamanı kollektorlar vasitəsilə dənizə axıdılması;
- Gəmiçilikdə çirkləndirici amil kimi əsasən ballast suları, məişət fekal suları və döşəməaltı sular (neftli lay suları), tərsanələrdə gəmilərin təmiri zamanı formalaşan tullantılar və s.

Xəzər dənizinin neftlə çirklənmənsinin qarşısını alınması üçün aşağıdakıları təklif edərdik:

- Xəzər dənizi ilə əlaqəsi olan axarlara iri sənaye müəssisələrində formalaşan çirkab suların təmizlənmədən atılmasının qarşısının alınması;
- Neft və neft-kimya müəssisələrində istismar olunan avadanlıqların müasir tələblərə cavab verən avadanlıqlarla əvəz olunması;
- Açıq dənizdə fəaliyyət göstərən və NQÇİ-lərin tabeliyində olan, uzun müddət fasiləsiz istismar olunan hidrotexniki qurğuların müasir tələblərə cavab verən qurğularla əvəz edilməsini;

DOI: https://doi.org/10.36719/2709-4197/2023/2/1

- Neftlə çirklənmə qeydə alınarsa onun dərhal aradan qaldırılması istiqamətində təxirəsalınmaz işlərin görülməsi;
- Mütəmadi olaraq dəniz suyunun laboratoriyalarda analiz edilməsi və lazımı tədbirlərin görülməsi;
- Xəzər dənizinin dəniz ətraf mühitinin mühafizəsi sahəsində əldə olunmuş nailiyyətlər.

Xəzər dənizinin ekoloji vəziyyəti həmçinin birmənalı şəkildə bioloji aləminə də təsirsiz ötüşmür. Bioloji aləmi qlobal istiləşmə, ekoloji çirklənmə və səviyyə tərəddüdü ilə sıx bağlıdır.

Xəzərin səviyyə tərəddüdü ilə bağlı aparılan müşahidələrin əsasını 1837-ci ildə Bakıda E.Lents qoymuşdur. Müşahidələr dövründə qeydə alınmış ən yüksək səviyyə (-25.2 metr) 1882-ci ildə, ən aşağı (-29.0 metr) səviyyə isə 1977-ci ildə qeydə alınmışdır. Səviyyənin dəyişməsi iqlim, geoloji və antropogen amillərlə əlaqələndirilir. İqlim amili öz təsirini Xəzərin su balansının gəlir (dənizə axan çayların suları və dənizə düşən yağıntılar) və çıxar (səthdən buxarlanma) fərqində göstərir. Balansın pozulması səviyyənin dəyişməsi ilə nəticələnir, yəni çay suları və yağıntının miqdarı səthdən buxarlanmadan çox olduğu halda səviyyə qalxır və əksinə. Xəzər faunasının məskunlaşdığı və inkişaf etdiyi şelf zonasının sahəsi azalır, balıqların kürü tökmək üçün çaylara keçməsinə əngəl yaranır. Bu zonanın hidrometeoroloji rejimində mənfi dəyişikliklər baş verir. Səviyyənin qalxdığı hallarda da sahil zonasının sosial-iqtisadi vəziyyətinə külli miqdarda ziyan dəyir, ekoloji şərait pisləşir, bataqlıqlar yaranır, evlər və torpaqlar su altında qalır. 2023-cü il aprel ayında tərəfimizdən aparılan müşahidələrin nəticəsi olaraq onu deməyə əsas verir ki, Xəzər dənizinin səviyyəsi təxminən 2 metrə qədər aşağı enib. Bu da su aynasının sahəsinin kiçilməsinə səbəb olub. Azərbaycan sahillərində, xüsusilə Nabran sahilləri və Yaşma düzlərinin sahil xəttinin geri çəkilməsini müşahidə edə bilərik. Hacı Zeynalabdin Tağıyev qəsəbəsi yaxınlığındakı sahil hissəsində dayazlıqlar demək olar ki, quru sahəyə çevrilib.

DOI: https://doi.org/10.36719/2709-4197/2023/2/1

Səviyyənin aşağı düşməsi öz növbəsində dənizin bioloji aləminə və dəniz nəqliyyat sisteminə mənfi təsir göstərəcək.

Mütəxəssislərin fikrincə Dünyanın unikal incisi olan Xəzərin səviyyəsinin düşməsinin əsas səbəbləri kimi, qlobal istiləşmə, dibində gedən tektonik proseslər və hər il kifayət qədər neftin çıxarılması göstərilir. Səviyyə aşağı düşməsi belə davam edərsə Xəzər vasitəsilə Dünya okeanına çıxış edən ölkələr çətinliklə üzləşəcəklər.

Xəzər dənizi nəinki bizim üçün, bütün region, o cümlədən Dünya üçün olduqca böyük əhəmiyyətə malik su hövzəsidir. Suyunun duzluluğun aşağı olması onun suyundan içməli su kimi istifadə olunmasını da ön plana çəkir. Bu haqda Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin 12 Aprel 2023-cü il tarixli “Dəniz suyunun duzsuzlaşdırılması yolu ilə içməli su istehsalı sahəsində pilot layihənin həyata keçirilməsi tədbirləri haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı”nda öz əksini tapır.

Bizə düşən məsuliyyət əlimizdən gəldiyi qədər unikallığı qoruyub, gələcək nəsillərə ekoloji təmiz, bol bioloji və mineral resursları və normal su səviyyəsi olan Xəzər dənizi ötürməliyik. Bunu üçün bütün region ölkələri, əsasən də sahil ölkələri birgə səy göstərməlidir.

DOI: https://doi.org/10.36719/2709-4197/2023/2/1

**Ülviyyə Allahverdiyeva**
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti
magistrant
rahimub9902@gmail.com

# RƏHİLƏ HƏSƏNOVANIN FORTEPİANO ÜÇÜN "MONAD" SONATASININ TƏFSİR XÜSUSİYYƏTLƏRİ

***Açar sözlər:*** *Rəhilə Həsənova, bəstəkar, fortepiano, sonata, muğam, müasirlik*

***Keywords:*** *Rahila Hasanova, composer, piano, sonata, mugham, modernity*

Müasir Azərbaycan bəstəkarlıq məktəbinin tanınmış nümayəndələrindən olan Rəhilə Həsənovanın fortepiano yaradıcılığı ifaçılıq imkanlarının müxtəlifliyi baxımından xüsusilə maraq doğurur. R.Həsənova mahir pianoçu olması onun fortepiano əsərlərinin xüsusiyyətlərini müəyyənləşdirmişdir. O, fortepiano alətini daim diqqətdə saxlamış, ifaçıların repertuarını zənginləşdirən bir sıra əsərlər yaratmışdır. Fortepiano musiqisi onun üçün önəmli, mərhələvi əhəmiyyət daşımış, bir növ axtarışlar meydanı olmuşdur.

Məlumdur ki, XX əsrin ikinci yarısından başlayaraq fortepianoya münasibət birmənalı olmamışdır. Məsələn, müasir dövrün tanınmış bəstəkarı S.Qubaydulina pianonun "yaxşı temperasiyalı" olması səbəbindən imkanlarının məhdudluğu barədə danışır, mikrotonları hasil etmək baxımından zəngin simli alətlərə üstünlük verdiyini vurğulamışdır (Dadaşzadə, 2020: 466).

R.Həsənovanin 12 prelüddən ibarət "Çeşmə" silsiləsi, "Payız palitrası" (Autumn's Palette), "Jasmin ləçəkləri", "New Baroque Fugues and Postludes", "Alla Meykhana" ("Meyxanasayağı") fantaziyası kimi fortepiano əsərləri bəstəkarın yaradıcılığının zirvəsini təşkil edir.

DOI: https://doi.org/10.36719/2709-4197/2023/2/1

Bəstəkarın “Monad” adlı sonatası 1993-cü ildə yazılıb və tanınmış pianoçu, Əməkdar artist Rəna Rzayevaya ithaf edilib. Sonata R.Həsənovanın sənət uğurlarından hesab edilə bilər. Əsərin bədii məzmununu bəstəkar belə açıqlayır: *“Monad (qədim yunan sözüdür, “vahid” kimi tərcümə olunur) – bölünməz vəhdət, asılılıq ideyasını ifadə edir. Hər kiçicik belə hüceyrə böyük bir mənzərənin maketidir. Amma hər şey vahid bir modelə arxalansa da, variasiyaların sayı sonsuzdur”* (Dadaşzadə, 2021: 516). Başqa sözlə, bu əsərdə bəstəkar kiçik intonasiya hüceyrəsindən əzəmətli bir konstruksiya yetişdirir.

Əslində R.Həsənova əsərin proqram başlığı ilə məhdudlaşa bilərdi. Lakin burada həm ad, həm janr definisiyası eynilə vacib olduğu üçün müəllif ideyasını əks etdirən başlıq əsəri sanki adicə bir pyes səviyyəsinə endirirdi. “Sonata” janr adı isə məzmun tipi kimi, dinləyicinin diqqətini müəyyən məcraya – ciddi məsələlərin müzakirəsinə yönəltmək üçün R.Həsənova üçün vacib idi. Sonatada dramatik toqquşmalar, fəal inkişaf əsnasında musiqi materialının əsaslı transformasiyası, qüdrətli kulminasiyalar müşahidə edilir (Əliyeva, 1996: 118).

Sonata janrını seçməsi bəstəkar qayəsinin mürəkkəbliyini və dərinliyini vurğulamaq məqsədini daşıyır. Minimalizm üslubunda icra olunan bu birhissəli kompozisiyada konfliktin mənbəyi elə başlanğıc musiqi fikrindədir. “Sonatalılıq” keyfiyyəti həmin ilkin fikrin böyük inkişafa və dəyişikliklərə məruz qalmasını təmin edir.

Fasiləsiz “emosional kreşşendo” kimi qurulan bu kompozisiyada aqogika və dinamika kimi ekspressiya vasitələri yetərincə istifadə olunub. Tempin sürətlənib-səngiməsi, dinamikanın müvafiq olaraq artımı və azalmasının müşahidə edilməsi, ritmik vurğuların dəyişkənliyi, güclü psixoloji və emosional təsir bağışlayır (Ələsgərli, 2009: 230).

Aleatorika məcrasında yazılan musiqinin ifasında müəyyən spesifik xüsusiyyətlər var. Dinləyiş əsnasında bədahət

DOI: https://doi.org/10.36719/2709-4197/2023/2/1

təəssüratı yaransa da, əslində bu, yanlış bir təsəvvür olub müəllif tərəfindən modelləşdirilmişdir. Sonatada ifaçı bəstəkarın yaradıcılıq prosesinə qərq olmalı, onun bütün duyğularını ardıcıl olaraq öz ifasında yaşamalı, bir növ əsərin yazılışı prosesini bərpa etməlidir. R.Həsənovanın yaratdığı mətnlər onun qayəsini kifayət qədər dəqiq əks etdirir: ifaçı tərəfindən mətnə həssas, diqqətcil münasibət isə təqdimatın uğurunu təmin edir (Dadashzade, 2018).

R.Həsənovanın "Monad" sonatası bəstəkarın digər fortepiano əsərlərində olduğu kimi, pianoçuya öz bacarığını dolğun ifadə etmək imkanı açan cazibədar, parlaq, "olduqca özünəməxsus" əsər kimi səciyyəndirilə bilər.

## Ədəbiyyat

1. Dadaşzadə, Z., Həsənova, R. (2020). Azərbaycan musiqi tarixi, 5 cilddə. Bakı: Elm, c.5, 668 s.
2. Dadaşzadə, Z. (2021). Rəhilə Həsənovanın valehedici kəşfləri. "525-ci qəzet". 10 noyabr.
3. Əliyeva, F. (1996). Azərbaycan musiqisində üslub axtarışları. Bakı, 118 s.
4. Ələsgərli, K. (2009). Rəhilə Teymur Həsənovanın musiqi dünyası. Monoqrafiya. Bakı: Təknur, 230 s.
5. Dadashzade, Z. (2018). Rahila Hasanova: bridging the two seemingly disparate worlds of Eastern and Western cultures. Musica Kaleidoskopea. 10 aprel.

II BEYNƏLXALQ HUMANİTAR VƏ İCTİMAİ ELMLƏR KONFRANSININ MATERİALLARI
19 may 2023 / 38-40
MATERIALS OF THE II INTERNATIONAL CONFERENCE ON HUMANITIES AND SOCIAL SCIENCE
19 may 2023 / 38-40
DOI: https://doi.org/10.36719/2709-4197/2023/2/1

**Fərid Ağababazadə**
Azərbaycan Turizm və Menecment Universiteti
magistrant
ferid.agababazade99@gmail.com

# BEYNƏLXALQ ALƏMDƏ QAZİLƏRİN SOSİAL REABİLİTASİYASI VƏ ADAPTASİYASI PROBLEMİ

***Açar sözlər:*** *qazilər, sosial reabilitasiya, adaptasiya, ölkələr, təşkilatlar*
***Keywords:*** *ghazis, social rehabilitation, adaptation, countries, organizations*

Sosial reabilitasiya və uyğunlaşma anlayışı hərbi veteranlar və travma keçirmiş digər şəxslər kontekstində geniş şəkildə tədqiq edilmişdir. Bir sıra tədqiqatlar göstərmişdir ki, sosial dəstək və reabilitasiya proqramlarına çıxış bu şəxslərin fiziki və psixi sağlamlığının nəticələrini əhəmiyyətli dərəcədə yaxşılaşdıra bilər. Bununla belə, qazilərin sosial reabilitasiyası və adaptasiyasına xüsusi diqqət yetirən tədqiqatlar nisbətən məhduddur. Qazilərin mühüm rol oynadığı Əfqanıstan və Pakistan kimi ölkələrdə bir neçə hökumət və qeyri-hökumət təşkilatı bu şəxsləri dəstəkləmək üçün reabilitasiya və adaptasiya proqramlarına start verib. Bu təşəbbüslərə peşə təhsili, məsləhət xidmətləri və qazilərə biznes qurmağa və ya ali təhsil almağa kömək etmək üçün maliyyə yardımı daxildir. Eynilə, Türkiyədə hökümət qazilərin reabilitasiyası və adaptasiyasına dəstək olmaq üçün bir sıra proqramlar təsis edib. Bunun əksinə olaraq, ABŞ kimi digər ölkələrdə qazilərin sosial reabilitasiyası və adaptasiyası daha az institusionallaşdırılıb və məsuliyyət çox vaxt qeyri-hökumət təşkilatlarının, həmçinin icma əsaslı təşəbbüslərin üzərinə düşür. Bununla belə, son illərdə ABŞ hökuməti veteranların, o cümlədən qazilərin fiziki və ruhi sağlamlığını dəstəkləmək üçün

DOI: https://doi.org/10.36719/2709-4197/2023/2/1

"Veteranların İşləri Departamentinin Keçid və Qayğı İdarəetmə" kimi bir neçə proqrama başlamışdır.

Dünyanın müxtəlif ölkələrində qazilər üçün sosial reabilitasiya və adaptasiya proqramları ilə bağlı mövcud nümunələrin təhlili daxil olmaqla, keyfiyyətli tədqiqat metodologiyasından istifadə olunur. Araşdırma həmçinin sosial reabilitasiya və adaptasiya ilə bağlı təcrübələri və perspektivləri haqqında fikir əldə etmək üçün maraqlı tərəflərlə, o cümlədən qazilərin özləri ilə müsahibələri əhatə edir. Araşdırma nəticəsində məlum olub ki, qazilər üçün sosial reabilitasiya və adaptasiya proqramları ölkələr arasında əhəmiyyətli dərəcədə fərqlənir. Bu fərqlərə baxmayaraq, qazilərin sosial reabilitasiyasını və uyğunlaşmasını dəstəkləmək üçün müxtəlif kontekstlərdə tətbiq oluna bilən bir neçə ən yaxşı təcrübənin mövcud olduğunu aşkar etdi. Bunlara səhiyyə xidmətlərinə çıxış, peşə təhsili və işə yerləşdirmə proqramları, məsləhət və psixi sağlamlıq xidmətləri, maliyyə yardımı və digərləri daxildir.

Qazilərin sosial reabilitasiyası və adaptasiyası dünya miqyasında hökumətlərin və qeyri-hökumət təşkilatlarının əhəmiyyətli diqqətini tələb edən kritik məsələdir. Bu araşdırma müxtəlif ölkələrdə qaziləri dəstəkləmək üçün nəzərdə tutulmuş müxtəlif təşəbbüslər və proqramları vurğulayır və müxtəlif kontekstlərdə tətbiq oluna bilən ən yaxşı təcrübələrə dair fikir verir. Bununla belə, maliyyə məhdudiyyətləri, institusional dəstəyin olmaması və sosial damğalanma da daxil olmaqla, qazilərin sosial reabilitasiyası və adaptasiyasının dəstəklənməsində hələ də ciddi problemlər mövcuddur. Qazilərin sosial reabilitasiyası və adaptasiyasının kompleks və çoxşaxəli bir məsələ olduğunu və kompleks yanaşma tələb etdiyini qəbul etmək vacibdir. Buraya qazilərin fiziki, psixoloji və sosial ehtiyaclarının qarşılanması və onların mülki həyata uğurla qayıtması üçün lazım olan resurslar və dəstəyin təmin edilməsi daxildir. Hökumətlər reabilitasiya və adaptasiya

DOI: https://doi.org/10.36719/2709-4197/2023/2/1

proqramları üçün institusional dəstək və maliyyə təmin etməklə bu səydə mühüm rol oynayır. Qeyri-hökumət təşkilatları da məsləhət və işə yerləşdirmə kimi vacib xidmətlərin təmin edilməsində və qazilərin üzləşdiyi problemlər haqqında məlumatlılığın artırılmasında mühüm rol oynayır. Bundan əlavə, icmalar qazi olmaq ilə bağlı stiqmanı azaltmağa kömək edərək mühüm sosial dəstək göstərə bilər. Qazilərin ehtiyaclarının fərdi şəraitdən asılı olaraq dəyişdiyini də etiraf etmək lazımdır. Məsələn, ciddi xəsarət alımış qazilər unikal ehtiyaclarını qarşılamaq üçün əlavə dəstək və xidmətlər tələb edə bilər, digərləri isə təhsil və işə yerləşdirmə ilə bağlı daha çox yardım tələb edə bilər. Odur ki, sosial reabilitasiya və adaptasiyaya hər hansı kompleks yanaşma ayrı-ayrı qazilərin xüsusi ehtiyaclarını ödəmək üçün uyğunlaşdırılmalıdır.

Nəticə olaraq, Qazilərin sosial reabilitasiyası və adaptasiyası bütün maraqlı tərəflərdən əhəmiyyətli diqqət və vəsait tələb edən bir məsələdir. Qazilərin ehtiyaclarını qarşılamaq üçün hökumətlər, qeyri-hökumət təşkilatları və icmalar mühüm rol oynayan birgə səy tələb edəcək. Lazımi dəstəyi və resursları təmin etməklə qazilərin mülki həyata uğurla qayıtmasına və üzləşdikləri çətinliklərin öhdəsindən gəlməyə kömək etmək mümkündür.

II BEYNƏLXALQ HUMANİTAR VƏ İCTİMAİ ELMLƏR KONFRANSININ MATERİALLARI
19 may 2023 / 41-43
MATERIALS OF THE II INTERNATIONAL CONFERENCE ON HUMANITIES AND SOCIAL SCIENCE
19 may 2023 / 41-43
DOI: https://doi.org/10.36719/2709-4197/2023/2/1

**Səxavət Əlili**
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti
magistrant
elilisexavet@gmail.com

# HACI XANMƏMMƏDOVUN TAR İLƏ SİMFONİK ORKESTRI ÜÇÜN 5 SAYLI KONSERTİNİN 1-Cİ HİSSƏSİNİN İNTERPRETASİYA MƏSƏLƏLƏRİ

***Açar sözlər:*** *Bayatı-şiraz, tar, konsert, Hacı Xanməmmədov, Ağasəlim Abdullayev*

***Keywords:*** *Bayati-shiraz, tar, concert, Haji Khanmammadov, Aghaselim Abdullayev*

Görkəmli Azərbaycan bəstəkarı Hacı Xanməmmədovun yaradıcılığı çoxşaxəlidir.Belə ki, o, saysız-hesabsız mahnıların, musiqili komediyaların, xalq çalğı alətləti orkestri üçün əsərlərin müəllifidir. Hacı Xanməmmədovun yaradıcılığının böyük bir hissəsini tar üçün konsertləri təşkil edir. Bəstəkar Azərbaycan musiqi tarixinə tar ilə simfonik orkestr üçün konsertin ilk nümunəsinin müəllifi kimi daxil olmuşdur. Xanməmmədov tar ilə simfonik orkestr üçün 5 konsert , kamança və simfonik orkestr üçün 1 konsert bəstələmişdir. Hacı Xanməmmədovun bu konsertləri tədris materialları kimi ali və orta təhsil musiqi ocaqlarında istifadə olunur. Tam əminliklə demək olar ki, bir çox xalq çalğı alətləri ifaçılarının yetişməsində Hacı Xanməmmədovun konsertlərinin önəmli rolu olmuşdur.

Bu konsertlər arasında 5 saylı konsertin xüsusi yeri vardır. Konsertdə tar alətinə xas olan tembr boyaları və ifaçılıq texnikası peşəkarlıqla nümayiş etdirilmişdir.

Məlum olduğu kimi, bəstəkar hər bir konsertini Azərbaycan ifaçılıq sənətinin inkişafında mühüm xidmətləri

DOI: https://doi.org/10.36719/2709-4197/2023/2/1

olan dəyərli sənətkarlarımıza ithaf etmişdir. Bu ənənəyə sadiq qalaraq 5 saylı konserti də bizim görkəmli ifaçımız, xalq artisti, professor Ağasəlim Abdullayevə həsr etmişdir. Bəstəkar öz çıxışlarında da qeyd edirdi ki: "Ağasəlim Abdullayevin ifasını çox bəyənirdim və özünə də bildirmişdim ki, 5 saylı konsert yazacam və bu konsertin ilk ifaçısı siz olacaqsınız".

Təhlilə cəlb etdiyimiz əsər klassik konsert janrına xas olan 3 hissədən ibarətdir. Birinci hissə ənənəvi olaraq sonata allegrosu formasında yazılmışdır (Qafarova, 1998: 32).

Konsertin birinci hissəsinin əsas mövzusu bayatı-şiraz məqamı üzərində qurulmuş və birbaşa solist və orkestrin ifası ilə başlayır. 3/4 ölçüyə əsaslanan əsas mövzu (*Allegro*) a moll tonallığında səslənir. İlk quruluşdan sonra əsas partiya simfonik orkestrın ifasında keçir. Birinci hissənin əsas mövzusunun ümumi obrazı-emosional aləmini şən, şux sözləri ilə ifadə etmək olar. Təhlil etdiyimiz mövzu üçün xas olan ştrixlər (liqa, aksent) və melizmlər ifaçıdan böyük ustalıq tələb edir. Daha sonra ekspozisiyanın köməkçi mövzusu səslənir. Səciyyəvidir ki, köməkçi partiyada əsas mövzu olduğu kimi bayatı-şiraz məqamına əsaslanır və onun tonallığı g moll dur. Bəstəkar burada bayatı-şiraz məqamının spesifik xüsusiyyətindən-qəmgin, lirik boyalarını məharətlə istifadə etmişdir.

İşlənmə hissəsi (c moll) 12/8 ölçüdədir və *Presto* tempində səslənir. Bu bölmədə tonallıqların dəyişkənliyinə, mövzular toqquşmasına, işləməyə xas olaraq kontrastlığa üstünlük verilmişdir.

Əsərin 42-ci xanəsində bir çox konsertlərdə olduğu kimi kadensiyadan öncə ilk hissənin əsas lirik melodiyası səslənir (e moll). Lirik mövzu 6/8 ölçüdə *Andante* tempində və bayatı-şiraz məqamı əsasındadır. Burada trellərdən, tar alətinə xas alt mizrablardan və muğamlarımızda istifadə edilən barmaq sürüştürməklə (yəni mizrab vurmayaraq digər səslərə toxunmaq) artikulyasiya priomundan istifadə edilmişdir.

DOI: https://doi.org/10.36719/2709-4197/2023/2/1

Bayatı-şiraz məqamı üzərində qurulmuş kiçik lirik səciyyəli bölmədən sonra əsərin kadensiyası (e moll) gəlir. Kadensiyada 4/4 və 3/4 ölçülər bir-biri ilə növbələşir. Kadensiyanın son bölməsində melodiya rast və bayatı-şiraz məqamlarının bir-birini əvəzləməsi ilə qurulur. Kadensiya notla dəqiq qeyd olunsa da, onun ifasında muğamvari artikulyasiya priyomlarından, o cümlədən muğamlarda istifadə olunan tarın ifaçılıq üsulu olan "xum vermək"dən istifadə olunmuşdur.

Kadensiya bitdikdən sonra repriza ifa olunur (*Allegro a tempo*) və daha sonra eyni mövzu tarda səslənir. Konsertin 1-ci hissəsinin kodası 3/4 ölçüdə, *Allegro* tempindədir. Koda əsas mövzu ilə başlayır və ardından onaltılıq notlarla və akkordalarla ilk hissənin sonuna təntənəli şəkildə yekun vurulur.

Beləliklə, Hacı Xanməmmədovun tar üçün 5 saylı Konserti bəstələndiyi gündən müasir dövrümüzə kimi özünün ifaçılıq məziyyətləri ilə diqqəti cəlb edir və tədris repertuarında istifadə olunur.

## Ədəbiyyat

1. Qafarova, Z. (1998). Hacı Xanməmmədov. Bakı: Şirvan nəşr, 32 s.

II BEYNƏLXALQ HUMANİTAR VƏ İCTİMAİ ELMLƏR KONFRANSININ MATERİALLARI
19 may 2023 / 44-46
MATERIALS OF THE II INTERNATIONAL CONFERENCE ON HUMANITIES AND SOCIAL SCIENCE
19 may 2023 / 44-46
DOI: https://doi.org/10.36719/2709-4197/2023/2/1

**Nəzrin Nəzirli**
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti
magistrant
nezrinnezirli@gmail.com

# POSTMODERN MUSİQİ KONTEKSTİNDƏ POLİSTİLİZM

***Açar sözlər:*** *postmodern, polistilizm, musiqi cərəyanı, XX əsr musiqisi, Alfred Şnitke*
***Keywords:*** *postmodern, polystylism, music trend, XX century music, Alfred Schnittke*

Postmodern musiqi XX əsrin sonlarında, xüsusən 1960-cı illərdən etibarən yaranan müxtəlif musiqi üslublarını və cərəyanlarını təsvir etmək üçün istifadə edilən bir termindir. O, modernist musiqi konvensiyalarını rədd etməsi, eklektizm və ironiyanı qəbul etməsi ilə xarakterizə olunur.

Postmodern musiqi tez-tez qeyri-ənənəvi texnika və alətlərdən istifadə etməklə, müxtəlif musiqi janrları və ənənələrinin elementlərini özündə birləşdirməsi ilə seçilir. Buraya improvizasiya, qeyri-müəyyənlik və təsadüf elementləri, eləcə də digər musiqi, incəsənət və ya ədəbiyyat əsərlərinə istinadlar daxil ola bilər.

Postmodern musiqidə bəstəkarlar tez-tez ənənəvi musiqi sərhədlərinə meydan oxumağa və qurulmuş musiqi iyerarxiyalarını şübhə altına almağa çalışırlar. Onlar həmçinin musiqi ifadəsinin yeni üsullarını araşdırmaq və qeyri-adi xarakter daşıyan əsərlər yaratmaqda maraqlı ola bilərlər.

Postmodern musiqinin bəzi görkəmli nümayəndələri arasında ABŞ-da John Cage, Steve Reich, Philip Glass və Terry Riley, Böyük Britaniyada Michael Nyman və Gavin kimi bəstəkarları nümunə göstərmək olar. Postmodern musiqi həm

DOI: https://doi.org/10.36719/2709-4197/2023/2/1

də populyar musiqiyə əhəmiyyətli təsir göstərmişdir, bir çox sənətkarlar postmodernizm elementlərini öz musiqi və sözlərinə daxil etmişlər.

Musiqili postmodernizmin çoxsaylı istiqamətlərindən biri də polistilizmdir. Polistilistika (yun. polús – çoxlu, stȳlos – üslub) - müxtəlif üslub elementlərinin və texniki vasitələrin bir əsərdə məqsədyönlü birləşdirilməsidir. Postmodern musiqi kontekstində polistilizmə ənənəvi musiqi sərhədlərinə meydan oxumaq və musiqi ifadəsinin yeni formalarını yaratmaq yolu kimi baxmaq olar.

Postmodern bəstəkarlar çox vaxt polistilizmdən müxtəlif musiqi ənənələrini araşdırmaq, populyar və xalq musiqisinin elementlərini əsərlərinə daxil etmək üçün istifadə edirlər. Məsələn, bəstəkar John Zorn tez-tez caz, rok və klassik musiqi də daxil olmaqla müxtəlif janrlardan və həmçinin polistilizmdən istifadə etməsi ilə tanınıb.

Postmodern polistilizmin başqa bir nümunəsinə bəstəkar Alfred Şnitkenin musiqisini misal göstərə bilərik. Polistilizm termini rus bəstəkarı və musiqişünası Alfred Şnitke tərəfindən istifadə edilmiş və nəzəriyyələşdirilmiş anlayışdır. O, əvvəlki akademik ənənədə onun spesifik üsullarını müəyyən etmiş və bir çox esse, məqalə yazmaqla və bu kompozisiya üsullarını fərdi işində tətbiq etməklə onun prinsiplərini özündə cəmləşdirmişdir. Terminin ilkin mənbəsi A.Şnitke olmasa da, mövzunun ilk mühüm müzakirəsi onun tərəfindən *“Polystylistic Tendencies in Modern Music”* (Müasir musiqidə polistilistik tendensiyalar, 1971)" essesində öz əhəmiyyətini göstərmişdir.

Polistilizmə yanaşma bədii hadisələri sintetik perspektivdə müşahidə etmək və postmodern dövrün bəzi istiqamətlərində ənənənin hansı kompozisiya metodlarından istifadə etdiyini başa düşmək imkanı verir. Şnitke'nin musiqisi tez-tez klassik və populyar musiqinin elementlərini özündə birləşdirir, həmçinin digər bəstəkarlara və musiqi üslublarına istinadları ehtiva edir.

DOI: https://doi.org/10.36719/2709-4197/2023/2/1

Onun “Konsert Qrosso №1” əsəri polistilizmdən istifadəsinin diqqətəlayiq nümunəsidir, çünki o, bu əsərində barokko musiqisinin elementlərini dissonans, atonallıq və musiqi üslubunda kəskin dəyişikliklər kimi modernist və postmodernist üsullarla birləşdirərək bu ənənəvi formanı alt-üst etmişdir.

Xülasə, polistilizm postmodern musiqinin inkişafında mühüm rol oynayıb, bəstəkarlara musiqi ifadəsinin yeni formalarını yaratmaq və ənənəvi musiqi sərhədlərinə meydan oxumaq üçün müxtəlif üslub və üsullarla təcrübə aparmağa imkan vermişdir.

DOI: https://doi.org/10.36719/2709-4197/2023/2/1

**Lala Jafarova**
Baku, Azerbaijan
lala-j@hotmail.com

# THE ROLE OF POLITICAL INSTITUTES IN THE HEALTHCARE POLICY OF THE STATE

***Keywords:*** *political institutions, health politics, public health policy, political analysis, public health, public health protection*
***Açar sözlər:*** *siyasi institutlar, səhiyyə siyasəti, səhiyyə sahəsində dövlət siyasəti, siyasi analiz, ictimai səhiyyə, əhalinin sağlamlığının qorunması*

Significant place in the state policy of any country is occupied by social issues, one of the most significant of which is the protection of the health of population. Political institutions play a decisive role in the formation of health care policy and influence on its implementation. Various state institutions can directly influence how health problems are defined, what solutions are offered, and what are the target groups.

Political institutions cover a wide range of parties, both formal and informal subjects of interest. These include political leaders, political parties, various interest groups, civil society organizations, and even external donors. The activity of each of the political institutes is based on different motives, beliefs, political programs, etc. However, depending on their role, they can directly or indirectly participate in political processes related to the protection of the population's health, that is, politics in the area of health care.

Often, it is slogans related to health care that can form the basis of an election campaign. The most striking example of this was the Obamacare (Beland, Rocco, Waddan, 2016: 428)

DOI: https://doi.org/10.36719/2709-4197/2023/2/1

program of the healthcare reformation that took place in the USA. Thus, Obamacare project was known as the Affordable Care Act (ACA). It dealt with issues of health care reform and became a landmark factor in the agenda of then USA President Barack Obama (Trachtman, 2020: 111). The Act made it possible to provide affordable and comprehensive health insurance to millions of previously uninsured Americans who did not have it due to the private nature of US health insurance.

From the point of view of political science, it is of great interest to analyze the influence and interaction of various parties involved in the earlier-mentioned processes and their role in ensuring the stability of the political system. Understanding the dynamics of these actors and how they influence health policy outcomes requires appropriate political analysis to identify the interests, ideas and institutions of various stakeholder groups. Moreover, conducting political analysis makes it possible to identify sources of conflict, resistance and cooperation between them. For example, political analysis can help build coalitions, negotiate compromises, communicate effectively, and mobilize support for health policy goals.

Political analysis can be paramount in addressing complex health issues such as universal health coverage, the pandemic response, and equity in public health. Thus, the influence of issues related to the protection of public health has also manifested itself during the coronavirus pandemic (COVID-19) (Schraff, 2021: 1007). The solution of these issues cannot be ensured without an appropriate state policy, i.e., political decisions. It is through political decisions that the balancing of competing values and interests can be ensured. Moreover, the state policy ensures the acceptability and feasibility of the tasks set for the various actors. The ways that resources, and different institutions shape the conditions of daily life and

DOI: https://doi.org/10.36719/2709-4197/2023/2/1

affect health outcomes for population constitute political factors. Different state programs, e.g., aimed at improvement of social protection, the availability and quality of healthcare services and even at ensuring good environmental conditions can influence health of population. Therefore, improving health of population and advancing health equity require involvement of political factors.

The development of policy in any area of the state requires appropriate political analysis, even in such an area as healthcare. Because political analysis provides the necessary information base that is important for developing evidence-based and context-sensitive recommendations that can improve health policy implementation and outcomes for the protection of health of population.

## References

1. Beland, D., Rocco, P., Waddan, A. (2016). Obamacare and the politics of universal health insurance coverage in the United States. Social Policy Administration. 50, № 4, p.428-451.
2. Trachtman, S. (2020). When state policy makes national politics: the case of "Obamacare" marketplace implementation. Journal of Health Politics, Policy and Law. 45. № 1, p.111-141.
3. Schraff, D. (2021). Political trust during the Covid-19 pandemic: Rally around the flag or lockdown effects? European journal of political research. 60. № 4, p.1007-1017.

II BEYNƏLXALQ HUMANİTAR VƏ İCTİMAİ ELMLƏR KONFRANSININ MATERİALLARI
19 may 2023 / 50-53
MATERIALS OF THE II INTERNATIONAL CONFERENCE ON HUMANITIES AND SOCIAL SCIENCE
19 may 2023 / 50-53
DOI: https://doi.org/10.36719/2709-4197/2023/2/1

**Çinarə Məmmədova**
Bakı Slavyan Universiteti
m.n.chinara@gmail.com

# İBTİDAİ SİNİFLƏRDƏ İNFORMATİKA FƏNNİNİN TƏDRİSİ

***Açar sözlər:*** *ibtidai sinif, informatika, fənn, metodika, tədris*
***Keywords:*** *primary school, computer science, subject, methodology, teaching*

XXI əsr texnologiyalar əsridir. Müasir uşaq elektron mədəniyyət dünyasında yaşayır. Bu xüsusda, informasiya mədəniyyətində müəllimin rolu da dəyişir. O, informasiya axınının koordinatoruna çevrilməlidir. Ona görə də müəllim uşaqla eyni dildə ünsiyyət qurmaq üçün müasir metodlara, yeni təhsil texnologiyalarına yiyələnməlidir. İbtidai sinif müəlliminin qarşısında duran əsas vəzifələrdən biri dünyagörüşünü genişləndirmək, ətraf-mühit haqqında bilikləri dərinləşdirmək, uşaqların zehni fəaliyyətini aktivləşdirmək, nitqi inkişaf etdirməkdir. Yeni informasiya texnologiyalarının sürətli inkişafı və onların ölkəmizdə tətbiqi müasir uşağın şəxsiyyətinin inkişafında öz izini qoymuşdur. Bu gün ənənəvi "müəllim-şagird-dərslik" sxeminə yeni bir keçid olan, kompüter təlimi isə məktəb şüuruna daxil edilir (Novruzova, 2017: 15).

Ömür boyu təhsil, informasiya texnologiyalarının ənənəvi təhsil metodlarına inteqrasiyası və şagirdin unikallığının dərk edilməsi uşaqların təhsil və tərbiyəsini, onların müasir şəraitdə həyata və əmək fəaliyyətinə hazırlanmasını keyfiyyətcə yeni səviyyəyə yüksəltməyə hesablanıb (John, Sutherland, 2005: 405).

Qeyd olunanlar əsasında belə bir sual meydana gələ bilər. İbtidai siniflərdə informatika fənnini kimlər tədris etməlidir?

DOI: https://doi.org/10.36719/2709-4197/2023/2/1

Bununla bağlı iki fikir var. Birincisi, ibtidai siniflərdə informatika tədrisini ibtidai sinif müəllimləri təşkil edə bilər. İkincisi, dərsləri orta və ali məktəblərdə işləyən informatika müəllimi keçə bilər. İbtidai siniflərdə informatika fənninin yüksək keyfiyyətlə tədrisini təmin etmək üçün ibtidai sinif müəllimlərində yazılı şəkildə ifadə olunan öyrənmək, yeni bilik sahəsinə daxil olmaq istəyi lazımdır. Çünki artıq tədris olunan materialın təqdim edilməsi metodlarını, dəyişdirmək belə, əhəmiyyətli, psixoloji tələblər tələb edir. Hazırkı dövrdə, tədris resursları ilə yanaşmalar dəyişsə belə, müəllim bütün əsas metodları mükəmməl bilir. İnformatika kursunun məzmununu tam mənimsəməyən, mövzunu və məqsədləri başa düşməyən müəllim yaxşı tədris və təlim komplekti olsa belə, dərsi yüksək səviyyədə təşkil edə bilməyəcək. Əgər ibtidai sinif müəllimi informatika fənnini öyrətmək arzusunu bildirirsə, bu o deməkdir ki, o, tədrisin məzmununu və metodikasını mənimsəməyi, kompüter texnologiyalarını ona kiçik yaşlı şagirdlərlə praktiki məşğələlər keçirməyə və kompüterdən dərs kimi istifadə etməyə imkan verən səviyyədə mənimsəməyi öhdəsinə götürür. Bununla bağlı ibtidai sinif müəllimi informatika və informasiya texnologiyaları sahəsində ixtisasartırma kursları keçməli və bununla da öz sinfində informatika fənnini tədris etmək hüququ qazanmalıdır. İbtidai siniflərdə informatika fənninin əsas və ya orta məktəbdə işləyən informatika müəllimi tərəfindən yüksək keyfiyyətli tədrisini təmin etmək üçün ibtidai sinif şagirdlərinin psixoloji xüsusiyyətlərini, ibtidai siniflərdə dərslərin aparılması metodikasını öyrənmək və mənimsəmək lazımdır. İbtidai məktəb yaşlı uşaqların psixologiyası, bədən tərbiyəsi, uşaqlara sual vermə tərzi və hər cür oyunların təşkili üsulları informatika müəllimində vacib olmalı xüsusdur. İnformatika müəllimi uşaqların oxuduqları dərsliklərlə tanış olmalıdır ki, uşaqların artıq başqa dərslərdə mənimsədiklərini

DOI: https://doi.org/10.36719/2709-4197/2023/2/1

formalaşdırmağa vaxt itirməsin, onların biliklərinə güvənsin, ibtidai sinifdə informatikanın verdiyini əlavə etsin, artıq əldə edilmiş bilikləri təhrif etməsin. Müəllim tədris-metodiki paketlə tanış olsa belə, onun ibtidai təhsil proqramı haqqında təsəvvürlərinin real vəziyyətlə uzlaşdırılması istiqamətində müəyyən işlər görməlidir. Bu kursun ən səmərəli tədrisi üçün informatika müəlliminə ibtidai sinifdə tədrisin məzmunu və metodikası ilə tanış olan ibtidai sinif müəlliminin və ya məktəbin baş müəlliminin məsləhət xidməti lazımdır. İbtidai sinif müəllimi dərslərdə iştirak edə bilər və ya sadəcə olaraq informatika müəlliminə dərs planı yazmağa kömək edə bilər, lakin onların əlaqəsi ödənilməlidir. Öyrənmənin bütün tərəfləri tələbələrin dərsinə və biliyinə görə birgə və ayrıca məsuliyyət daşıyırlar (Stepanova, 2011: 78).

İbtidai sinif şagirdlərinin təfəkkürü orta sinif uşaqlarından əhəmiyyətli dərəcədə fərqləndiyindən dərslər aparılarkən anlayışların qavranılmasını və reallığın iyerarxiyasını nəzərə almaq lazımdır. İnkişafın bu mərhələsində uşaqlar təbiətin əsas qanunları haqqında sual vermirlər. Bu yaşda kompüterin cihazı və onun mexaniki xüsusiyyətləri onları maraqlandırmır. Öyrənmə prosesində uşaqlarda PC-nin mexanizmləri (fərdi kompüter - bundan sonra), təbii proseslər və s. düzgün qoyulmuş əsas biliklər uşaqlara bu mexanizmləri təkbaşına və ya müəllimin köməyi ilə öyrənməyə və başa düşməyə imkan verəcəkdir. İbtidai sinif müəlliminin vəzifəsi tədris olunan materialın kursunun məzmununa uyğun olaraq kiçik şagirdin ilkin ideyalar sistemini qurmaq, formalaşdırmaqdır (Novruzova, 2017: 17).

İbtidai siniflərdə tədrisin xüsusiyyətlərinə aşağıdakı tədris üsullarını aid etmək olar:

propedevtika (ilkin olaraq mən dərs deyirəm) sistemli və elementar şəkildə təqdim olunan giriş kursudur, lakin bu o demək deyil ki, kurs daxilində primitiv, qeyri-elmi ideyalar formalaşır;

DOI: https://doi.org/10.36719/2709-4197/2023/2/1

informasiya yanaşması - məlumatın, mətnin, şəklin məzmunu, yəni konkret məna (informasiyanın özü) ikinci dərəcəli nəzərə alındıqda, obyektlərə, hadisələrə və ya proseslərə məlumatın toplanması, toplanması, saxlanması, emalı və ötürülməsi nöqteyi-nəzərindən baxışdır.

Bu üsullar sayəsində ibtidai sinif şagirdləri təkcə tədris materialını öyrənmir, həm də tədris materialı onların inkişafına fəal kömək edir. Bundan əlavə, kompüter elminin inkişafında irəlilədikcə, tədris materialı digər fənlər üçün "işləməyə" başlayır, çünki bir çox mövzular inkişaf edən və ümumiləşdirici xarakter daşıyır.

## Ədəbiyyat

1. Novruzova, X. (2017). İnformatikanın tədris metodikası, (1-4-cü siniflər). Dərs vəsaiti. Bakı: ADPU-nəş., 152 s.
2. John, P., Sutherland, R. (2005). Affordance, opportunity and the pedagogical implications of ICT. Educational Review, 57 (4), p.405-413.
3. Stepanova, I. (2011). Teoriya i metodika obucheniye informatike i IKT v nachalnoy shkole: uchebno-metod. posobie. Krasnoyarsk: Sibirskiy Federalniy un-t., 290 s.

II BEYNƏLXALQ HUMANİTAR VƏ İCTİMAİ ELMLƏR KONFRANSININ MATERİALLARI
19 may 2023 / 54-57
MATERIALS OF THE II INTERNATIONAL CONFERENCE ON HUMANITIES AND SOCIAL SCIENCE
19 may 2023 / 54-57
DOI: https://doi.org/10.36719/2709-4197/2023/2/1

**Umudiya Asadova**
Baku Slavic University
Ph.D student
umidiya@mail.ru

# K.SIMONOV'S MILITARY JOURNALISM IN PARALLEL WITH THE TRILOGY "THE LIVING AND THE DEAD"

***Keywords:*** *military, journalism, article, stage, victory, man, warrior, front*
***Açar sözlər:*** *hərbi, publisistika, məqalə, mərhələ, qələbə, insan, döyüşçü, cəbhə*

Military journalism is a special genre kind of criticism. It differs from artistic purposefulness, efficiency of output, specificity and its thematic single-focus. In the essays and articles (for 1941) "Parts of the cover", "Off the coast of Romania", "Fighter of Fighter", "June – December" and others, the end-to-end theme is a retreat with minimal losses. Every hour won was important, but not the battle, since in 1941 a huge number of large cities and small settlements were surrendered to the Germans. Note along the way that the writer followed exactly the same line in the trilogy; the first book talks about how to hold the boundaries by any means, in the first part of the second book there are more philosophical and psychological reflections. In the second part of Book II, it is not so much the hours won that are relevant (although this is also important), but the very course of the battles, more precisely, the Battle of Stalingrad. There are significantly fewer battles here, and in principle there is only one task: the cleansing of the entire territory of Belarus from fascists.

In the central article for the period of 1941, "Parts of the

DOI: https://doi.org/10.36719/2709-4197/2023/2/1

cover", first of all, it was indicated: stingy and stereotypical phrases of the Information Bureau, such as "Our parts of the cover, turning into counterattacks, delay the enemy until our main forces approach" (Simonov, 1976: 24). Or: "During the last day, our parts of the cover were restrained the offensive of the enemy before the approach of our main forces" (Simonov, 1976: 28), according to the writer, "genuine military events were not disclosed in any way" (Simonov, 1976: 28). In fact, behind these phrases there was a titanic work, literally calculated every minute by infantrymen, gunners, anti-aircraft gunners, tankmen, pilots… Everyone knew what they had to do. "The goal is not victory, but to keep the borders occupied with incredible difficulty as long as possible" (Simonov, 1976: 25).

In 1941, Soviet soldiers had very little experience, and courage and enthusiasm alone could not win big battles. K.Simonov in early military journalism repeatedly returned to local points where the heroism of individual Soviet soldiers could save the overall situation. However, even the first – the most difficult year of the Second World War could no longer be assessed by such criteria. Defending every inch of land is a specific task of small battalions, but the spatial framework was noticeably expanded when it came to battles of non-local significance. (In the first book of the Living and the Dead, this is the struggle near Yelnya, and then for the station "Voskresenskoye"). Moreover, even a little experience passed on to the young becomes a panacea for future victory. K.Simonov, who was keenly able to listen to the conversations of soldiers, made an important remark: "Without discounting heroism, it should be borne in mind that it is unlikely that you will hear talk about losses in the soldiers' mass. Commanders and fighters talk about weak enemy locations, about tactics developed directly in combat operations, about what they

DOI: https://doi.org/10.36719/2709-4197/2023/2/1

passed on to others at the cost of their own lives" (Simonov, Erenburg, 1984: 25).

1942 is known for a wide band of guerrilla warfare that engulfed Ukraine, Belarus, the Rostov regions and many other regions of Russia, in which K.Simonov was directly involved. The large scale of partisan attacks directed by local authorities became the central theme of K.Simonov's journalism during this period. His following essays and articles are about this: "In the Kerch Quarries", "Russian Heart", "Soldier's Glory", "Days and Nights", "Rus – Plywood", "December Notes" and others.

Belief in the power of Soviet soldiers leading an underground struggle ran like a red thread through the articles and essays of Simonov listed in 1942.

This belief is clearly reflected in "The Living and the Dead", and throughout the trilogy. So, Sintsov, at the end of the summer of 1941, that is, during the period when the Red Army surrendered towns and villages to the Germans one by one, with unshakable faith in victory, told his wife Masha: "I do not undertake to judge how events will develop further, I do not want to lie! But that we won't lose the war – that's for sure! And don't think! And if you think so, throw it out of your head! We won't lose. No way!" (Simonov, 1976: 315).

The next stage in the military journalism of K.Simonov is the approach to a turning point in the war. However, the real turning point will come, as we know, only after the victory at the Kursk Bulge. This key event will take place, as you know, in the summer of 1943. Previously K.Simonov could not have known about this, since he wrote his articles monthly and reflected the facts also until the summer of 1943. Meanwhile, there was talk that a decisive turn towards victory would soon come. Some of them turned into euphoria, which the writer strongly opposed in his journalism. Moreover, in articles and

DOI: https://doi.org/10.36719/2709-4197/2023/2/1

other genre varieties of this period (“In the winter of the forty-third”, “Do as I do!”, “On the old Smolensk Road”, “In the Ponyrei area” and others), K.Simonov warned about the danger of underestimating a cunning and insidious enemy, who has the experience of taking more than half of Europe.

Surprisingly, in this case, the opinion of the war correspondent and the novelist differed. In journalism, up until the beginning of 1945, he wrote about the need for the most sober assessment of enemy forces. He warned about the mistakes of the command and the euphoria of individual soldiers to consider the war almost completed after the Battle of Stalingrad. But, it turns out, in “The Living and the Dead”, the arguments on this “seditious” topic were more free-spirited.

Simonov’s military journalism in this vein played a very important mobilizing and creative role. The destruction deliberately carried out by the Soviet troops, in particular the railway network, was an extreme, forced measure, creating obstacles to both the advance and retreat of German troops. There was creation in this act of destruction. And the epiphany of K.Simonov, who emphasized these facts, was confirmed the following year.

## References

1. Simonov, K., Erenburg, I. (1984). V odnoj gazete. M.: Izdatelstvo Agentstvo pechati. Novosti, 323 s.
2. Simonov, K.M. (1976). Soldatami ne rozhdayutsya. M.: Hudozhestvennaya literatura. T.1. Glavy pervaya – dvadcatvtoraya, s.335-512.
3. Simonov, K.M. (1976). Zhivye i myortvye. Roman v tryoh knigah. T.1. M.: Hudozhestvennaya literatura.

II BEYNƏLXALQ HUMANİTAR VƏ İCTİMAİ ELMLƏR KONFRANSININ MATERİALLARI
19 may 2023 / 58-60
MATERIALS OF THE II INTERNATIONAL CONFERENCE ON HUMANITIES AND SOCIAL SCIENCE
19 may 2023 / 58-60
DOI: https://doi.org/10.36719/2709-4197/2023/2/1

**Günel Bayramova**
Bakı Avrasiya Universiteti
magistrant
gunel.eliyeva599@mail.ru

# İNGİLİS DİLİNDƏ HÜQUQ MƏTNLƏRİNDƏ ALINMA SÖZLƏRDƏN İSTİFADƏ VƏ ONLARIN TƏRCÜMƏSİ

***Açar sözlər:*** *hüquq, termin, terminologiya, söz, dil, alınma söz, tərcümə*

***Keywords:****law, term, terminology, word, language, loanword, translation*

Müasir elmin mövcudluğu və inkişafı bütövlükdə terminlər olmadan mümkün deyildir. Termin xüsusi elmi məna daşıyan söz və ya söz birləşməsidir. Hüquq terminologiyası ingilis dilində hüququn ən vacib komponentlərindən biri və eləcə də müxtəlif mədəniyyətlər, dillər və sivilizasiyaların qovşağında təkamül edən xüsusi fenomen hesab edilir. İngilis dilində hüquqi terminologiyanın zənginləşməsi və mükəmməlləşməsinə təsir göstərən ən əsas amil alınma sözlərdir.

Ümumiyyətli ingilis dili tarix boyu işğallar və istilalar, eləcə də qonşu dövlətlərdə ticarət sahəsində aparılan siyasət və mədəni dəyişikliklərin təsiri altında daim dəyişikliyə məruz qalmış, bu təsir hüquq sistemindən də yan ötməmişdir. İngilis dilində daha çox Latın və Fransız mənşəli hüquq terminlərindən istifadə olunur. Latın dilinin hüquq terminologiyasına təsiri bu gün də qalmaqdadır. Belə ki, *ad hoc (“bu məqsədlə”, “bunun üçün”), de facto (“faktiki tanınma”, “əslində, faktiki olaraq”), inter alia (“əlavə olaraq”, “bununla yanaşı”), mens rea (“psixoloji element”), actus reus (“törədilən əməl”), obiter dictum (“müşahidə, qənaət”)* kimi sözlər hüquq sənədlərində istifadə olunan Latın mənşəli sözlərdir. Roma hüququ müasir

DOI: https://doi.org/10.36719/2709-4197/2023/2/1

hüquqşünaslığın inkişafında əhəmiyyətli rol oynamışdır. Avropada Latınizmin qəbul edilməsinin əsas səbəbi Latın dilində siyasi terminologiyanın dəqiq olması idi. Bu gün ingilis dilində orfoqrafiyasını dəyişmədən, sadəcə semantikasına cüzi dəyişiklik etməklə, kifayət qədər Latın sözlərindən istifadə edilir. Məsələn, *alibi ("alibi"-cinayət zamanı müttəhimin cinayət yerində deyil, başqa yerdə olması"), bona fides ("xoş niyyətli, vicdanlı, dürüst"), habeas corpus ("Həbsin qanuni olub-olmadığının müəyyən edilməsi üçün həbs olunmuş şəxsin məhkəməyə gətirilməsi haqqında məhkəmə əmri"), memorandum ("Hər hansı bir məsələ haqqında hökumətin fikirləri izah edilmiş diplomatik sənəd" – hərfi mənası "xatırlamaq" deməkdir), ultra vires ("Səlahiyyətdən kənar"), veto ("Qadağan etmə, ləğv etmə")* və s. İngilis dilinə Latın dilindən sözlər iki mərhələdə daxil olmuşdur: əvvəlcə Latın dilindən fransız dilinə, sonra isə fransız dilindən ingilis dilinə. Məsələn, *hakim* mənasını bildirən *judge* sözü Latın dilində *iudex,* fransız dilində *juge*, *fraud (fırıldaqçılıq)* sözü Latın dilində *fraudem,* qədim fransız dilində *fraude, evidence (sübut, fakt)* sözü Latın dilində *evidentia,* qədim fransız dilində *evidence, legal (hüquqi, qanuni)* sözü Latın dilində *legalis,* qədim Fransız dilində isə *légal* kimi işlədilmişdir.

1066-cı ildə Normal istilasından sonra İngiltərənin rəsmi dili Anqlo-Norman Fransız dili İngiltərədə siyasət və məhkəmənin rəsmi dili oldu. Təxminən 300 il müddətinə hüquqi prosedurlar bu dildə aparılırdı. İngilis dili sadəcə aşağı təbəqə arasında istifadə edilirdi.

Nəticə etibarilə, bu gün müasir hüquqi ingilis dilində istifadə olunan sözlərin bir qismi Anqlo-Norman dilindən qaynaqlanır. Məsələn, *property ("mülkiyyət") (qədim fransız dilində olan "propriete" sözünün Anqlo-Sakson dilində düzəliş edilmiş forması); estate ("mülk, əmlak") (Anqlo-Sakson sözü olan "astat"-dan götürülmüşdür); lease ("icarə") (Anqlo-Sakson sözü olan "les" sözündən qaynaqlanır); tenant*

DOI: https://doi.org/10.36719/2709-4197/2023/2/1

*(“kirənişin”) (Anqlo-Sakson sözü olan “tenaunt” sözüdən gəlir)* sözlərini misal göstərmək olar.

Orta əsrlərdə hüquqşünaslar Latın, Fransız və İngilis dillərindən qarışıq istifadə edirdilər. Müxtəlif dillərdə söz cütlərindən istifadə hüquqi dilin terminologiyasında bir sıra qarışıq dubletlərin yaranmasına gətirib çıxardı. Bunlara misal olaraq, *fit and proper (“müvafiq/uyğun”), null and void (“keçərli olmayan/etibarsız”),terms and conditions (“şərtlər”), controversy or claim (“qarşıdurma/iddia”), agree and covenant (razılaşmaq), cease and desist (işi dayandırmaq)* və digər sözləri göstərmək olar.

Qədim Skandinaviya dili də (Qədim Norse dili) ingilis dilinin hüquqi terminologiyasına əhəmiyyətli təsir göstərmişdir. Qədim Norse dilində olan sözlər IX-XI əsrlərdə şərqi və şimali İngiltərədə koloniyalaşma zamanı Qədim Norse və Qədim İngilis dilləri arasında olan qarşılıqlı əlaqələr nəticəsində İngilis dilinə nüfuz etmişdir. Belə sözlərə misal olaraq, *law (hüquq, qanun) (Qədim Norse dilində “sabit, tərpənməz” mənasını verən “log”), loan (Qədim Norse dilində “borc vermək” mənası verən “lan”) və ombudsman (Qədim Norse dilində “komissar, nümayəndə” mənasını verən “umboðsmaðr”)* sözlərini misal göstərmək olar. Eləcə də *gift “bağışlama”, sale (“satış”)* və *trust (“trest”)* sözləri də bu qəbildən olan sözlərdir.

Hüquqi sənədlərin dili İngiltərənin hüquq sisteminin tədricən artan mürəkkəbliyi və ən əsası, siyasi, linqvistik və mədəni təsirlərin təbii nəticəsidir. Hüquqi terminologiyanı təşkil edən sözlərin yarısından çoxu alınma söz və söz birləşmələrindən ibarətdir. Elə buna görədir ki, hüquq sənədlərində istifadə olunan ingilis dili standart ingilis dilindən çox fərqlidir.

## İÇİNDƏKİLƏR

**Şəfəq Əhmədova**
Azərbaycan dövlətçilik ənənəsində informasiyadan istifadə yolları və imkanları ....................................................5
**Nazilə Abdullazadə**
Həsən Mirzəyevin görüşlərində Heydər Əliyev şəxsiyyəti ..........................................................................9
**Məlahət Qədirova**
Belarus uşaq şairi V.Lukşanın yaradıcılığı XX əsr Azərbaycan mətbuatında ...........................................14
**Aysel Şükürova**
Metonimiya haqqında qeydlər ...............................................17
**Arəstə Xudiyeva**
Azərbaycan və ingilis dastanlarında "dəli" epitetinin semantikası ..........................................................................19
**Yüzdanə Cabbarlı**
Heydər Əliyevin kadr siyasəti sosial-iqtisadi uğurların əsas amili kimi (XX əsrin 70-ci illəri) ...................................23
**Xavər Hüseynova**
Aşiq musiqisində variantlılıq prinsipinin təzahürü (Sarıtel havalarının timsalında) ..............................................26
**Nəzrin Hacıyeva**
Azərbaycan sahillərində Xəzər dənizinin problemləri ............30
**Ülviyyə Allahverdiyeva**
Rəhilə Həsənovanın fortepiano üçün "Monad" sonatasının təfsir xüsusiyyətləri ..............................................................35
**Fərid Ağababazadə**
Beynəlxalq aləmdə qazilərin sosial reabilitasiyası və adaptasiyası problemi ..........................................................38
**Səxavət Əlili**
Hacı Xanməmmədovun tar ilə simfonik orkestri üçün 5 saylı konsertinin 1-ci hissəsinin interpretasiya məsələləri ..........................................................................41

**Nəzrin Nəzirli**
Postmodern musiqi kontekstində polistilizm ..........................44
**Lala Jafarova**
The role of political institutes in the healthcare
policy of the state ..................................................................47
**Çinarə Məmmədova**
İbtidai siniflərdə informatika fənninin tədrisi..........................50
**Umudiya Asadova**
K.Simonov's military journalism in parallel
with the trilogy "the living and the dead" ...............................54
**Günel Bayramova**
İngilis dilində hüquq mətnlərində alınma sözlərdən istifadə
və onların tərcüməsi .............................................................58

İmzalandı: 18.05.2023
Kağız formatı: 60x84 1/16
H/n həcmi: 4 ç.v.
Sifariş: 640

---

aem.az saytında çap olunub.
Ünvan: Bakı şəh., Mətbuat prospekti, 529-cu məh.,
“Azərbaycan” nəşriyyatı, 6-cı mərtəbə.
Tel.: + 994 50 209 59 68
+ 994 55 209 59 68
+ 994 12 510 63 99
e-mail: info@aem.az